# AZƏRBAYCANDAN İRANA DOST DƏSTƏYİ



Prezident İlham Əliyev hadisədən dərhal sonra sosial şəbəkə hesabından paylaşım edərək ciddi narahatlığını ifadə edib.

Axtarış-xilasetmə işləri ilə bağlı Azərbaycanın dost İran dövlətinə yardıma hazır olduğunu bildirib. Baş nazir Əli Əsədovun başçılıq etdiyi nümayəndə heyəti İranda İbrahim Rəisi və helikopter qəzasında həlak olan digər rəsmilərin anım mərasiminə qatılıb.

Prezidentin İran səfirliyinə baş çəkərək burada müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi ilə söhbəti zamanı səsləndirdiyi fikirlər xüsusi vurğulanmalıdır. Dövlət başçısı İran xalqına başsağlığı verərək Rəisini böyük dövlət xadimi, görkəmli siyasətçi, böyük şəxsiyyət adlandırıb.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



25 MAY ŞƏNBƏ 2024 № 19 (4170) Qiyməti - 40 qəpik www.kaspi.az



## "CÜMHURİYYƏTİN YARADICILARI ÇOX BÖYÜK İŞLƏR GÖRDÜLƏR"

AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, tarixçi-alim Musa Qasımlı: "Onların arzuları həyata keçdi. Onlar nə istəyirdilər? Azərbaycanı bütöv və güclü görmək. İndi Azərbaycan ərazisində separatizmin kökü kəsilib".

SƏHİFƏ 7-də



## FRANSA ÜÇÜN YENİ KALEDONİYA KABUSU

Əksər ekspertlər hesab edirlər ki, əslində beynəlxalq hüquq baxımından Yeni Kaledoniya Fransa ərazisi deyil. BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa tərəfindən idarə olunan bir ölkədir.

SƏHİFƏ 10-da



## ONUN KAMANI OXUYURDU

28 may böyük kaman ifaçısı Habil Əliyevin doğum günüdür. Sənət yoldaşları ustadı adına və sənətinə layiq hörmətlə anırlar. Deyirlər ki, Habil Əliyev kamanı ilə heç kimi təkrar etmirdi, yalnız özünü ifadə edirdi.

SƏHİFƏ 15-də

## QAZAXIN AZAD EDİLMİŞ DÖRD KƏNDİ NƏZARƏTƏ GÖTÜRÜLDÜ

# DƏQİQLİKLƏ İCRA OLUNAN PLAN



Qazaxın dörd kəndinin nəzarətə götürülməsi bir daha Azərbaycanın doğru siyasət yürütdüyünü təsdiqləyir. 44 günlük müharibə ilə başlayan suverenliyimizin tam bərpası prosesi yeni mərhələyə qədəm qoyub.

### ALİ BAŞ KOMANDANA MƏRUZƏ EDİLDİ

Azərbaycan sərhədçiləri Qazaxın azad edilmiş dörd kəndini nəzarətə götürüblər. Mayın 24-də dörd kənddə Azərbaycanın Dövlət bayrağı ucaldılıb, Dövlət Himni səsləndirilib. DSX Baş Qərargahının Dövlət Sərhəd Mühafizəsi Baş İdarəsinin rəisi, general-mayor Vüsal Sultanov bununla bağlı Prezident İlham Əliyevə məruzə edib.

### XALQA GÖZƏL BAYRAM HƏDİYYƏSİ

Kəndlərimiz üzərində nəzarətin bərpası həm də bizim üçün müqəddəs olan 28 May Müstəqillik Günü ərəfəsinə təsadüf edir. Bu səbəbdən bunu həm də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımıza bayram hədiyyəsi kimi də qiymətləndirə bilərik.

SƏHİFƏ 6-da

### "OXUMAĞA ATLETİN İDMANA YANAŞDIĞI KİMİ YANAŞIRAM"

# CİZGİ FİLMİ İLƏ HƏYATI DƏYİŞƏN VUNDERKİND



Deyir ki, uğurlu insanların əsas xüsusiyyətləri müəyyən qədər eqo, nailiyyətləri ilə kifayətlənməmək və insani keyfiyyətlərinin yüksək olmasıdır. Ona görə həddindən artıq eqolu olub, daim kiminləsə yarışmaq, bildiklərini bölüşməmək insanın işlədiyi quruma ən böyük zərbədir. Çünki uğurlu şirkətlər daxildə bir-biri ilə rəqabətdə olanlar deyil, komanda işini bacaranlar və bir-birinə dəstək olanlardır. Müsahibimiz 13 yaşında ilk ixtirasını edən, 22 yaşından isə "Google"da proqram mühəndisi kimi fəaliyyət göstərən İkram Gabıyevdir.

SƏHİFƏ 8-9-da



## TACİKİSTANIN AXTARDIĞI CAVABLAR AZƏRBAYCANDADIR

Tacikistanın Mərkəzi Asiyada həqiqi sabitlik yaratmaq üçün axtardığı alətlər Azərbaycanın əlində mövcuddur. Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyi, Rusiya, Qərb və Çinlə əlaqələri Düşənbə üçün cəlbedici görünür.

SƏHİFƏ 4-də



## ŞƏKƏR DƏRMANLARI NİYƏ YOXA ÇIXIB?

İlin əvvəlindən başlayaraq şəkər xəstələri pulsuz dərman almaqda əziyyət çəkirlər. Ekspertlər məsələni dövlət satınalmaları üzrə özəl şirkətlərlə dövlət müəssisələri arasında yaşanan problemlərlə izah edirlər.

SƏHİFƏ 13-də



## HƏDƏF OLİMPİYA QIZILIDIR

Hidayətin kolleksiyasında qatıldığı bütün böyük turnirlərin baş mükafatı var. Çatışmayan yalnız Olimpiya Oyunlarının qızılıdır. Bu il Parisdə keçiriləcək növbəti Yay Olimpiya Oyunlarında da 26 yaşlı cüdoçu əsas favoritlərdən olacaq.

SƏHİFƏ 16-da



Xarici diplomatlar Laçında

SƏHİFƏ 2-də



Ermənistan-Hindistan əməkdaşlığı alınmır

SƏHİFƏ 5-də



Fermerlərin üzü gülür

SƏHİFƏ 12-də



Küçə uşaqları ilə bağlı böyük layihə

SƏHİFƏ 11-də



"Məni buna hind filmləri həvəsləndirmişdi"

SƏHİFƏ 14-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Xarici diplomatlar Laçında

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri - səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların təmsilçiləri mayın 24-də Laçın İqlim Fəaliyyəti Dialoqu çərçivəsində şəhərə səfər ediblər. "Report" xəbər verir ki, onlar Zerti Aqro-Sənaye Parkında olublar.

Diplomatlara Zerti Aqro-Sənaye Parkındakı heyvanlar, yem istehsalı, həmçinin göyərti və pomidor becərilməsi üçün konteyner tipli təsərrüfatlar barədə məlumatlar verilib. Qeyd edilib ki, burada fəaliyyət göstərən bütün müəssisələr ən müasir texnologiyalarla təchiz olunub. Laçınlılar xaricdən dəvət edilmiş mütəxəssislərdən dərs alaraq həm işlə təmin olunur, həm də peşəkar vərdişlərə yiyələnirlər.

Sonra diplomatik korpusun nümayəndələri "Hoçazfilm" studiyasına gəliblər. Məlumat verilib ki, çoxşaxəli yaradıcılıq məkanı olan "Hoçazfilm"in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir.

Diplomatlar Qarabağ və Şərqi Zəngəzur ərazisində ekosistemin bərpasına töhfə vermək məqsədilə Həkəri çayının Laçın rayonu ərazisindən keçən hissəsinə farel balıqlarının buraxılması prosesini də izləyiblər.

Sonra 28 May - Müstəqillik Gününə həsr olunan "Xalça belə yarandı" sərgisinin açılışı olub. Sərgidə milli xalçalarla yanaşı, müxtəlif dizaynlarda hazırlanmış sənət nümunələri də nümayiş etdirilib.

# "BİZİM BÖYÜK TƏCRÜBƏMİZ VAR"

Prezident İlham Əliyev: "Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər".



Prezident İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına müsahibə verib.

### Aİ-YƏ ÜZV ÖLKƏLƏRLƏ FƏAL İŞLƏYİRİK

Dövlət başçısı bu il Bakıda keçirilməsi nəzərdə tutulan COP29 tədbiri ilə bağlı sualın cavabında bildirib ki, Azərbaycan bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyir: "Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi, üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Çünki siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz".



### "BİZİ MALİK OLDUQLARIMIZA GÖRƏ MÜHAKİMƏ ETMƏYİN"

Azərbaycan Prezidentinin "COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi" sualına cavabı da maraqlıdır. Dövlət başçısı deyib ki, biz məhz buna nail olmağa çalışırıq: "Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir".

### "BİZ QARŞILIQLI SƏYLƏR, HƏMRƏYLİK GÖSTƏRMƏLİYİK"

Prezident İlham Əliyev COP29-un davamlı mirası olaraq nəyi görmək istədiyini də açıqlayıb: "Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Eyni zamanda, bildiyiniz kimi COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik".

İRANDAKI HELİKOPTER QƏZASINDAN SONRA AZƏRBAYCANDAN ƏSL QONŞULUQ VƏ DOSTLUQ JESTLƏRİ

# "BİZ BUNDAN SONRA DA BİRLİKDƏ OLACAĞIQ"

Prezident İlham Əliyev hadisədən dərhal sonra sosial şəbəkə hesabından paylaşım edərək ciddi narahatlığını ifadə edib. Axtarış-xilasetmə işləri ilə bağlı Azərbaycanın dost İran dövlətinə yardıma hazır olduğunu bildirib.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İran Prezidenti Seyid İbrahim Rəisinin helikopter qəzasında faciəli şəkildə həlak olması dünyanın diqqətinin bir andaca yerləşdiyimiz bölgəyə yönəlməsinə səbəb olub. Qəza ilə bağlı müxtəlif ehtimallar, fərziyyələr irəli sürülüb. Lakin rəsmi Tehranın da açıqladığı ilkin qənaətə əsasən, faciəyə səbəb texniki nasazlıq və əlverişsiz hava şəraiti göstərilib. Bir çoxları bu xəbərlər fonunda manipulyasiyaya cəhd edərkən, ortaya sağlam mövqe qoyan dövlətlərdən biri də Azərbaycan olub.

Prezident İlham Əliyev hadisədən dərhal sonra sosial şəbəkə hesabından paylaşım edərək ciddi narahatlığını ifadə edib. Axtarış-xilasetmə işləri ilə bağlı Azərbaycanın dost İran dövlətinə yardıma hazır olduğunu bildirib. Baş nazir Əli Əsədovun başçılıq etdiyi nümayəndə heyəti İranda İbrahim Rəisi və helikopter qəzasında həlak olan digər rəsmilərin anım mərasiminə qatılıb. Təbii ki, Azərbaycanın sərgilədiyi mövqe İranda da təqdir edilir.

### XALQLARA VƏ DÜNYAYA VERİLƏN AÇIQ MESAJ

Azərbaycan Prezidentinin İranın ölkəmizdəki səfirliyinə baş çəkərək burada müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi ilə söhbəti zamanı səsləndirdiyi fikirlər xüsusi vurğulanmalıdır. Dövlət başçısı İran xalqına başsağlığı verərək Seyid İbrahim Rəisini böyük dövlət xadimi, görkəmli siyasətçi, böyük şəxsiyyət adlandırıb: "Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq. Açılış mərasimindən sonra həm mərhum Prezident Rəisinin, həm də mənim rəsmi açıqlamalarımız çox ciddi siyasi məna daşıyırdı. Hər iki Prezident açıq bəyan etmişdi ki, bu bölgənin gələcək inkişafında bölgədə yerləşən ölkələr fəal iştirak etməlidirlər".



## ƏLDƏ EDİLMİŞ BÜTÜN RAZILAŞMALAR İCRA EDİLƏCƏK

Göründüyü kimi, Azərbaycan İranla münasibətlərin inkişafında maraqlıdır. Prezident İlham Əliyevin məlum bəyanatından çıxarılacaq nəticə budur ki, faciə baş verməsinə baxmayaraq, Azərbaycan təməli yenidən atılan qarşılıqlı əlaqələrin dərinləşdirilməsinə, nəzərdə tutulan birgə layihələrin reallaşdırılmasına hazırdır. Bu xüsusda Azərbaycan Prezidentinin İranda seçkilərdən sonra qurulacaq yeni hökumətə ünvanlanan mesajları da diqqətəlayiqdir: "Bildiyiniz kimi, faciədən əvvəl biz iki saatdan çox birlikdə idik. Bir saatdan çox davam edən ikitərəfli görüş əsnasında bir çox önəmli məsələlər müzakirə edilmişdir. İran-Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdir və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdir. Bununla bərabər, biz konkret infrastruktur layihələri haqqında geniş fikir mübadiləsi aparmışdıq, önəmli qərarlar qəbul edilmişdir. O görüşdə iştirak edən şəxslər bunu, əminəm ki, İranın yeni rəhbərliyinə çatdıracaqlar. Əldə edilmiş bütün razılaşmalar, əminəm ki, icra ediləcək. Çünki bu, İran və Azərbaycan xalqlarının iradəsinə söykənir və biz mərhum Prezident Rəisi ilə söhbət əsnasında qəti iradəmizi bildirdik ki, bundan sonra böyük layihələrin sayı çox olacaq, həm ikitərəfli, həm çoxtərəfli formatda".



### REALLAŞDIRILAN BİRGƏ LAYİHƏLƏR

Artıq Azərbaycan-İran əlaqələrinin bir üst səviyyəyə daşınmasının rəmzi olan "Xudafərin" və "Qız Qalası" hidroqovşağı istifadəyə verilib. Bu layihələr iki dövlətin birgə səyləri və ortaq siyasi iradəsi ilə ərsəyə gəlib. Bu gün Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanı birləşdirəcək yeni qovşağın bir qolu İran ərazisindən keçəcək. Bu istiqamətdə infrastrukturun formalaşdırılması və yolların çəkilişi sürətlə davam edir. Bu yol tək Naxçıvan üçün nəzərdə tutulmayıb. Həm də Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin mühüm bir qolu kimi hər iki ölkənin iqtisadi inkişafına mühüm töhfələr verəcək, İranla Azərbaycan arasındakı bağları daha da gücləndirəcək.

## RƏSMİ BAKI BÖLGƏDƏ SÜLH VƏ SABİTLİYİN TƏRƏFDARIDIR

Artıq Azərbaycanın İrandakı səfirliyinin yenidən fəaliyyətə başlaması məsələsi də həllini tapmaq üzrədir. Bu istiqamətdə diplomatik kanallar vasitəsi ilə intensiv müzakirələr aparılır. Hər iki tərəf rəsmi səviyyədə səfirliyin fəaliyyətinin tezliklə bərpa olunacağını təsdiqləyib.

Bütün bu qeyd olunanlar bir daha rəsmi Bakının qonşu dövlətlərlə qarşılıqlı əlaqələrə xüsusi həssaslıqla yanaşdığını göstərir. Azərbaycan regional əməkdaşlıq çərçivəsində bölgəmizdə sülh və sabitliyin təmini, iqtisadi inkişafın, regional inteqrasiyanın tərəfdarıdır. Qonşularımızla münasibətlər qarşılıqlı hörmət, bir-birilərinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyü və suverenliyin tanınması, bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanır. İllərdir davam edən bu siyasət İran-Azərbaycan əlaqələrinin də təməlini təşkil edib. Mərhum Prezident İbrahim Rəisi ilə son görüşdə əldə olunmuş razılaşmalar və orada səsləndirilən bəyanatlar isə Bakı ilə Tehran arasındakı əlaqələrin daha da sıxlaşacağına, münasibətlərdə yeni bir səhifənin açılacağına təminat verir.

# TACİKİSTANIN AXTARDIĞI CAVABLAR AZƏRBAYCANDADIR

Tacikistanın Mərkəzi Asiyada davamlı sülh, həqiqi sabitlik yaratmaq üçün axtardığı alətlər həm də Azərbaycanın əlində mövcuddur. Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyi, Rusiya, Qərb və Çinlə genişlənən əlaqələri rəsmi Düşənbə üçün cəlbedici görünür.



AQŞİN KƏRİMOV

May ayın 23-də Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana dövlət səfərinə gəldi. Onun Azərbaycan Prezident İlham Əliyevlə apardığı müzakirələrin kifayət qədər geniş və məhsuldar gündəliyə söykəndiyini qeyd edə bilərik.

### TACİKİSTANIN XARİCİ SİYASƏTİNƏ ÜMUMİ BAXIŞ

Emoməli Rəhmonun Azərbaycana səfərinin alt qatını Tacikistanın xarici siyasətindəki ştrixlərə baxmaqla daha yaxşı başa düşmək olar.

Tacikistan mürəkkəb coğrafiyada yerləşir. Ölkə dünya güclərinin iti baxışları altında olan Mərkəzi Asiya regionunda yerləşdiyindən münaqişələrdən yayınmaqda, bunun əvəzinə qonşuluq, dostluq münasibətləri axtarmaqdadır.

Çin Xalq Respublikası ilə mehriban qonşuluq və dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi Tacikistanın Asiya sektorundakı xarici siyasətinin ən mühüm istiqamətlərindən biridir. Bununla belə, Tacikistan Rusiya ilə əlaqələrə də xüsusi diqqət ayırır və ölkə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur. Tacikistan Qərblə münasibətlər qurarkən Çin və Rusiyanın iradəsini nəzərə almaq məcburiyyəti ilə üzləşir, buna görə də daha incə balans ipi üzərində manevrlər etmək çağırışı ilə qarşı-qarşıyadır.

Tacikistan Respublikasının Xarici Siyasət Konsepsiyasına əsasən, Ukrayna, Belarus, Moldova, Azərbaycan, Gürcüstan və Ermənistanla əməkdaşlığın genişləndirilməsi xarici siyasətin ən mühüm məqsədlərindən biridir. Ancaq Azərbaycan Ermənistan üzərində qələbə qazandıqdan və bundan sonra Rusiya-Ukrayna müharibəsinin başlamasından bu yana Tacikistanın məqsədlərində Azərbaycanın çəkisi artmaqdadır. Çünki Tacikistanın qarşılıqlı fəaliyyət və geniş regional inteqrasiyası, Mərkəzi Asiyada davamlı sülh, həqiqi sabitlik yaratmaq üçün axtardığı alətlər həm də Azərbaycanın əlində mövcuddur. Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyi, Rusiya, Qərb və Çinlə genişlənən əlaqələri, o cümlədən təhlükəsizlik münasibətlərində yeni mərhələnin başladılması Tacikistan kimi ölkə üçün cəlbedici görünür.

### "ORTA DƏHLİZ"İN ARTAN ƏHƏMİYYƏTİ

Üstəlik, Azərbaycanın Transxəzər nəqliyyat dəhlizindəki ("Orta Dəhliz") rolu artır ki, bu da Çindən Avropaya uzanan ticari koridorların şaxələndirilməsini prioritetləşdirir. Tacikistan da həmin şaxələndirmə xəttində yer alaraq Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edən ölkə ola bilər. Bu mənada İlham Əliyevin Emoməli Rəhmon ilə geniş tərkibdə görüşündəki bu mövqeyi diqqət çəkir. Sitat: "Təbii ki, bizim müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır. Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Transxəzər nəqliyyat dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır".

## TƏHLÜKƏSİZLİK ÜÇÜN RESEPTLƏR

Deməli, Tacikistanın indi beynəlxalq əlaqələrini şaxələndirmək xətti həm də Azərbaycanın Mərkəzi Asiyanın geosiyasi mənzərəsində böyüyə biləcək rolları ilə uzlaşdırılır. Emoməli Rəhmonun Bakıya səfərinin bu amillər fonunda strateji mənalandırılmasını qeyd etmək mümkündür.

Səfər zamanı iki dövlət arasında Strateji Tərəfdaşlıq Bəyannaməsi başda olmaqla, müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən digər sənədlərin də imzalanması

Azərbaycan-Tacikistan əlaqələrinin inkişafına töhfə verir.



### REGİONAL PROBLEMLƏR, GEOSİYASİ DƏYİŞİKLİKLƏR

Təbii ki, səfər zamanı təkcə ikitərəfli əlaqələrin məzmunu deyil, eyni zamanda regional problemlər, geosiyasi dəyişikliklər, dünyadakı vəziyyətə də diqqət yetirilib. Prezident İlham Əliyev həmkarı ilə mətbuata birgə bəyanat zamanı deyib: "Bu gün, həmçinin geosiyasi dəyişikliklər, dünyadakı vəziyyət, regionlarımızdakı şərait ilə bağlı məsələləri müzakirə etdik. Biz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və bu sahədə əməkdaşlığın inkişafı, təhsil, mədəniyyət və kənd təsərrüfatı ilə bağlı məsələləri ətraflı nəzərdən keçirdik".

Emoməli Rəhmon da birgə bəyanat zamanı oxşar mövqe səsləndirib: "Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk".

## DÜŞƏNBƏ BAKININ TƏCRÜBƏSİNDƏN YARARLANMAQ İSTƏYİR

Deməli, Tacikistan özünü Cənubi Qafqazda Azərbaycan-Ermənistan münasibətlərinə nisbətdə yaranan post-müharibə reallıqlarına transformasiya etməklə məşğul olur. Burada məqsəd Tacikistanın mümkün təhdidlərlə üzləşdiyi zaman Azərbaycanın təhlükəsizlik və müdafiə qüdrəti ilə əlaqədar təcrübələrini öyrənməkdir. Çünki Azərbaycanın regionda tutduğu mövqeyi nəzərə alaraq, bu ölkə ilə ənənəvi dostluq münasibətlərinin, strateji tərəfdaşlığın intensivləşdirilməsi və möhkəmləndirilməsi Tacikistan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan da Tacikistanın siyasi cəhətdən stabil qalmasının və ölkənin ümumilikdə təhlükəsizlik mühitinin gücləndirilməsinin tərəfdarıdır.

Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri ilk olaraq iki ölkənin müasir dünyanın geosiyasi mənzərəsində baş verən dərin siyasi və iqtisadi dəyişikliklərdə əməkdaşlıq modellərini qurmağa hesablanıb.

# ERMƏNİSTAN-HİNDİSTAN ƏMƏKDAŞLIĞI ALINMIR

Yüklərin daşınmasını asanlaşdırmaq və müddəti azaltmaq üçün nəzərdə tutulan yol Ermənistanda dalana dirənə bilər. Alternativ variant Azərbaycan ərazisindən keçəcək Zəngəzur dəhlizidir.



FUAD ABASOĞLU

Bu yaxınlarda Hindistan hökuməti ilə İran arasında Çabahar limanının icarəyə verilməsi barədə sənəd imzalanıb. Hind okeanı və beynəlxalq sulara MDB ölkələrinin çıxışı üçün ən qısa tranzit marşrutlardan biri sayılan bu limana dünya dövlətlərinin də marağı böyükdür. İki ölkə arasında imzalanan müqavilə 10 illikdir və sonradan yenilənməsi nəzərdə tutulub. Limanın idarəçiliyi isə rəsmi Dehliyə aiddir. Bu müqavilə ilə Hindistan hökuməti Rusiya, Cənubi Qafqaz, Avropa və Orta Asiya ilə ticarət əlaqələrini genişləndirmək, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinə qoşulmağı planlaşdırır. Sənədə əsasən, Rusiyadan göndərilən yüklər Azərbaycan və İran ərazisindən keçərək limana, oradan da Mumbaya çatdırılacaq. Eyni zamanda, əks istiqamətə də yüklərin daşınması planlaşdırılır.

### ERMƏNİSTANIN XAM XƏYALI

Məsələnin maraqlı tərəfi isə Ermənistanla bağlıdır. Erməni siyasi elitası ümid edir ki, bu layihə vasitəsilə yüklərin Avropaya və MDB ölkələrinə daşınmasında xüsusi paya malik olacaq və Avrasiya İqtisadi İttifaqının üzvü kimi piroqdan özünə pay götürəcək. Elə bu səbəbdən Ermənistanın keçmiş iqtisadiyyat naziri Vaan Kerobyan bir müddət əvvəl bəyan etmişdi ki, Dehli ilə İrəvan arasında İrandan keçən ticarət yolu cari ilin mayına qədər açılacaq. Təbii ki, söhbət Çabahar limanından gedirdi və tərəflər məsələni razılaşdırmışdılar. Paşinyan hökuməti bu xəbəri böyük iqtisadi uğur, çiçəklənməyə gedən yol kimi cəmiyyətə sırımağa macal da tapmışdı.

Amma necə deyərlər, sən saydığını say, gör fələk nə sayır. İran və Hindistan arasında 13 may tarixində imzalanan müqavilənin mürəkkəbi qurumamış, rəsmi Vaşinqton hərəkətə keçib.

ABŞ Dövlət Departamenti xəbərdarlıq edib ki, İranın Çabahar şəhərindəki Şəhid Beheşti limanını idarə və təchiz etmək üçün tərəfdaşlıq sazişi bağlayan Hindistan şirkəti sanksiyalarla üzləşə bilər.

Bu isə artıq müqavilənin icrasını sual altında qoyur. Ehtimal etmək olar ki, ABŞ-nin sanksiyalarına məruz qalmaq riski Hindistan hökumətini çəkindirəcək. Əgər əksinə hərəkət etsə, sanksiya zəncirinin uzanacağını və ABŞ-Hindistan münasibətlərinə xələl gətirəcəyini söyləmək mümkündür. Ağ Ev limanın fəaliyyətini mümkünsüz etmək üçün bütün yollara əl ata bilər.

### PAŞİNYANIN SUYA DÜŞƏN ARZUSU

Hadisələrin məlum istiqamətdə inkişafı isə ilk növbədə Ermənistana zərbədir. Birincisi, Hindistandan Çabahar limanı vasitəsilə hərbi yüklərin daşınma ehtimalı risk altına düşür. Son günlər rəsmi İrəvan və Dehli arasında müdafiə sahəsində əməkdaşlığın daha da dərinləşməsi barədə ard-arda rəsmi məlumatlar yayılsa da, sanksiyalardan sonra bu planların fiaskoya uğrayacağı gün kimi aydındır. Eyni zamanda, Avropaya və MDB ölkələrinə daşınan yüklərdən pay uman erməni dövlətinin bu arzusu da puça çıxır. Çünki hər fürsətdə adı dəyişdirilmiş "erməni qovşağı" layihəsini bir sıra meqalayihələrə "pərçimləmək" eşqi ilə alışıb-yanan erməni baş nazir sözügedən limandan Hindistan yüklərini MDB və Aİİ ölkələrinə daşımaqla külli miqdarda qazanc umurdu.

### ERMƏNİLƏR NƏYİNƏ GÜVƏNİRLƏR?

Ermənistan variantı ən uğursuz və potensialı olmayan marşrutdur. Bunun bir sıra səbəbləri var. Birincisi, erməni dövlətində infrastruktur yenilənməli, yollar genişləndirilməli, dəmiryolu şəbəkəsi inşa edilməlidir. Eyni zamanda, Ermənistanla İran arasında birbaşa dəmiryolu əlaqəsi də yoxdur. Avtomobil yolları isə çətin dağ relyeflərindən keçir və ilin bir çox aylarında istifadəsi qeyri-mümkündür. Avtomobil yolu Lars keçid məntəqəsindən keçməklə, Avropa və MDB məkanına çıxsa da, Kremlin Paşinyan hökumətini cəzalandırmaq üçün müntəzəm olaraq onu bağladığının da şahidi oluruq. Bu ssenari isə nə Qərb, nə də MDB ölkələri üçün məqbul deyil. Yüklərin daşınmasını asanlaşdırmaq və müddəti azaltmaq üçün nəzərdə tutulan yol Ermənistanda dalana dirənə bilər.



### ORTADA DAHA SƏRFƏLİ ALTERNATİV VARİANT DA VAR

Ehtimal etmək olar ki, Avropa İttifaqı gərginliyi azaltmağa çalışacaq və ABŞ-nin sanksiya istəklərini pozmadan nəqliyyat dəhlizini qoruyub saxlayacaq kompromis həll yollu axtaracaq. Onlar bu məqsədlə diplomatik səyləri gücləndirə bilərlər. Amma başqa alternativ də var və Qərb uzun müddətdir bu layihəyə daha çox maraq göstərir. Təbii ki, söhbət Azərbaycan vasitəsilə yüklərin daşınmasından gedir. "Hind okeanı və dolayı yolla Çindən Avropa və MDB məkanına daşınan yüklər üçün ən potensial və uğurlu marşrut xətti Azərbaycanın Zəngəzur dəhlizi layihəsidir" fikrini tam əminliklə söyləmək mümkündür.

Hadisələrin gedişatı göstərir ki, Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli qrupu yaxın vaxtlarda yenidən fəaliyyətə keçəcək və bu dəfə daha real nəticələrin əldə ediləcəyi artıq qaçılmaz görünür. Ermənistan siyasi elitasının son günlər Naxçıvanla dəmir yolu əlaqəsinin bərpası, regionda infrastrukturun blokdan çıxarılmasına hazır olmaları ilə bağlı bəyanatına bu prizmadan yanaşmaq lazımdır. Rəsmi İrəvan növbəti dəfə dərk edir ki, regionda heç bir beynəlxalq layihəni, xüsusən də logistika sahəsindəki ideyaları Azərbaycanın iştirakı və icazəsi olmadan həyata keçirmək mümkün deyil.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az



# DƏQİQLİKLƏ İCRA OLUNAN PLAN

Qazaxın dörd kəndinin nəzarətə götürülməsi bir daha Azərbaycanın doğru siyasət yürütdüyünü təsdiqləyir. 44 günlük müharibə ilə başlayan, antiterror tədbirləri ilə davam etdirilən suverenliyimizin tam bərpası prosesi dörd kəndin geri qaytarılması ilə yeni mərhələyə qədəm qoyub.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan sərhədçiləri Qazaxın azad edilmiş dörd kəndini nəzarətə götürüblər. Bu barədə Baş nazirin müavini Şahin Mustafayevin xidməti məlumat yayıb. Bildirilib ki, delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilib və bununla Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 km2) Azərbaycana qaytarılması təmin olunub. Mayın 24-də Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.

Mayın 24-də işğaldan azad edilən dörd kənddə Azərbaycanın Dövlət bayrağı ucaldılıb, Dövlət Himni səsləndirilib. Dövlət Sərhəd Xidməti Baş Qərargahının Dövlət Sərhəd Mühafizəsi Baş İdarəsinin rəisi, general-mayor Vüsal Sultanov bununla bağlı Prezident İlham Əliyevə məruzə edib.




## SUVERENLİYİN BƏRPASI İSTİQAMƏTİNDƏ NÖVBƏTİ ADDIM

Qeyd edək ki, 30 ildən artıq işğal altında qalmış sözügedən kəndlərin geri qaytarılması Azərbaycanın suverenliyinin bərpası istiqamətində yürütdüyü siyasət və atdığı addımların növbəti uğurlu təzahürüdür. 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın imza atdığı kapitulyasiya aktına əsasən, Ağdam, Kəlbəcər və Laçının döyüşsüz işğaldan azad edilməsi, ardınca antiterror tədbirləri ilə Xankəndi, Xocalı, Xocavənd və Ağdərə rayonlarının suverenliyimiz altına qayıtması növbəti prosesin məhz bu zamana qədər işğal altında qalmış kəndlərimizlə bağlı olacağının göstəricisi idi.

Qazaxın kəndləri üzərində nəzarətin tam bərpa olunması bir daha Azərbaycanın doğru siyasət yürütdüyünü təsdiqləyir. 44 günlük müharibə ilə başlayan, antiterror tədbirləri ilə davam etdirilən suverenliyimizin tam bərpası prosesi dörd kəndin geri qaytarılması ilə yeni mərhələyə qədəm qoyub. Bu uğurların əsasında Azərbaycanın müstəqil siyasi kursu, hərbi və iqtisadi qüdrəti, beynəlxalq səviyyədə artan çəkisi və bölgənin lider dövləti olması, ən əsası isə sarsılmaz xalq-iqtidar birliyi dayanır.

## "BİR QARIŞ TORPAĞIMIZ BELƏ, İŞĞAL ALTINDA QALMAYACAQ"

Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu məsələ 2020-ci il qələbəsindən dərhal sonra Bakının sülh gündəliyinin əsas prioritetlərindən biri olub. Ali Baş Komandanın "bir qarış torpağımız belə, işğal altında qalmayacaq" bəyanatı bu gün bir daha özünün rəsmi təsdiqini əməldə tapır. Hər şeyin vaxtında və dəqiq, ölçülüb-biçilmiş zərgər dəqiqliyi ilə reallaşdırılması Azərbaycanın ali rəhbərliyinin yürütdüyü siyasətin məntiqi nəticəsidir.

## İFLASA UĞRAYAN MƏKRLİ PLANLAR

Qeyd edək ki, tarixi qələbəmizdən sonra istər sərhədlərin müəyyənləşdirilməsi, istərsə də sülh danışıqlarının nəticəsiz qalması istiqamətində kənar müdaxilələrin qarşısı səbir və təmkinlə alındı. Ermənistanı yenidən revanşizmə səsləyən, bölgədə separatizmi körükləməyə çalışan, işğal altında qalan kəndlərin geri qaytarılmasını əngəlləyərək vəziyyətin gərginləşməsini istəyənlərin planları Bakının dəmir siyasi iradəsi, uzaqgörən siyasəti və diplomatik gedişləri ilə ortadan qaldırıldı. Azərbaycan Prezidentinin irəli sürdüyü ikitərəfli danışıqlar formatı sülh prosesinin əsasını təşkil etdikdən sonra, İrəvan Bakının tələbləri ilə razılaşmaqdan başqa çarəsinin qalmadığını gördü. Prezident İlham Əliyevin bir cümləlik "bu kəndlər işğaldan dərhal azad olunmalıdır" xəbərdarlığı qarşı tərəfin Azərbaycanın tələbini gözardı etməyin onlar üçün nələrə səbəb olacağını anlaması üçün kifayət etdi.

## İLHAM ƏLİYEVİN XALQIMIZA BAYRAM HƏDİYYƏSİ

Mayın 24-ü həm də İlham Əliyevin növbəti müddət üçün prezidentlik fəaliyyətinə başlamasının 100-cü günü idi. Prezident kimi yeni dönəmə başlamamışdan öncə andiçmə mərasimində çıxışı zamanı qarşıya qoyulan hədəfləri açıqlayan dövlət başçısı qısa zaman kəsiyində bu istiqamətdə nə dərəcədə uğurlu addımların atıldığını öz əməli fəaliyyəti ilə göstərdi. Bir aydan az bir müddətdə dörd kəndin qaytarılması istiqamətində aparılan danışıqlar, Ermənistanla ilk dəfə olaraq dövlət sərhədinin bir hissəsinin rəsmən razılaşdırılması dövlət və milli maraqlarımıza əsaslanan bu fəaliyyətin ən bariz nümunəsidir.

Kəndlərimiz üzərində nəzarətin bərpası həm də Cümhuriyyət günü ərəfəsinə təsadüf edir. Bu səbəbdən bunu həm də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımıza bayram hədiyyəsi kimi də qiymətləndirə bilərik.

## YENİ İNKİŞAF MƏRHƏLƏSİ BAŞLAYIR

İndi işğaldan azad edilən bu kəndlərimizlə bağlı yeni inkişaf mərhələsi başlayır. Yuxarı Qarabağ, Şərqi Zəngəzur da daxil olmaqla, işğaldan azad edilmiş bütün ərazilərimizdə başladılan bərpa-quruculuq prosesi ən qısa zamanda Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılıya da çatacaq. Bu torpaqlar əsl sahiblərinə qovuşacaq və həyat yenidən qaynayacaq.

Prezident İlham Əliyevin "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!" bəyanatı bu tarixi anla daha da geniş miqyas aldı. Biz bu gün bu torpaqlarla yanaşı, artıq əbədi olaraq Bağanıs Ayrımdayıq, Aşağı Əskiparadayıq, Xeyrımlıdayıq, Qızılhacılıdayıq....

# “Cümhuriyyətin yaradıcıları çox böyük işlər gördülər”



## Musa Qasımlı: “Onların arzuları həyata keçdi. Onlar nə istəyirdilər? Azərbaycanı bütöv və güclü görmək. İndi Azərbaycan ərazisində separatizmin kökü kəsilib”.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzeti tərəfindən reallaşdırılan “Məktəbdə” layihəsinin qonağı olan Milli Məclisin Elm və Təhsil Komitəsinin sədr müavini, AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, tarixçi-alim Musa Qasımlının fikirləri məktəblilər üçün əsl dərs oldu.

Yasamal rayonu 13 nömrəli tam orta məktəbdə keçirilən görüşdə məktəbin direktoru Yaqut Sadıqova bu tip tədbirlərin şagirdlərin həyatında mühüm rol oynadığını, onların yaddaşına ömürlük yazıldığını bildirdi.

### “CÜMHURİYYƏT DÖVRÜ XADİMLƏRİ SAĞ OLSAYDI...”

M.Qasımlı öncə auditoriyaya “2020-ci ildən əvvəlki dövrlə indiki dövr arasında hansı fərqi görürsünüz?” sualını ünvanladı. Şagirdlərdən birinin “biz indi müstəqil və azad Azərbaycanın gəncləriyik” cavabı qonağı məmnun etdi: “2020-ci ilə qədər torpaqlarımız işğal altında idi. Deyirdilər, torpaqlarımız qayıdacaq, amma biz inanmırdıq. Cənab Prezident İlham Əliyev bu problemi həll etdi, sizdən sonrakı nəsillərə saxlamadı”. Millət vəkili qeyd etdi ki, Cümhuriyyət dövrü xadimləri sağ olsaydılar, Prezident İlham Əliyevlə fəxr edərdilər. Çünki onların arzuları həyata keçdi: “Onlar nə istəyirdilər? Azərbaycanı bütöv və güclü görmək. İndi Azərbaycan ərazisində separatizmin kökü kəsilib. Bunun memarı İlham Əliyevdir. O səlib yürüşlərindən, I Pyotrdan bəri bizim regiona ermənilərin gətirilməsi planını darmadağın etdi”. Tarixçi - alim Cümhuriyyət dövrünün üç böyük hadisə ilə millətimizin gələcəyinə təsir etdiyini vurğuladı: “Bir nümunəsi 28 mayda Cümhuriyyətin elan olunmasıdır. Əgər bu hadisə olmasaydı Azərbaycan Sosialist Respublikası olmazdı. Bu respublika olmasaydı Azərbaycanın müstəqilliyi elan olunmazdı. İkinci böyük hadisə Bakı şəhərinin 1918-ci il sentyabrın 15-də Azərbaycan və türk əsgərlərindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi və paytaxt elan olunması idi. Cümhuriyyətin üçüncü böyük hadisəsi 1920-ci ilin yanvar ayında Azərbaycanın müstəqilliyinin de-fakto tanınması idi”.

### “DÖVLƏTİN GÜCLÜ OLMASI HƏR BİR FƏRDİN MARAĞINDADIR”

M.Qasımlı qeyd etdi ki, bu gün Azərbaycan xalqı qalibdir: “Biz Xocalı soyqırımını, Şuşanın, Zəngilanın, Ağdamın, Kəlbəcərin işğalını qeyd edirdik. Amma indi Laçının “Şəhər günü”nü, Şuşanın, Kəlbəcərin azad edilməsi gününü qeyd edirik. Biz şəhidlərimizin, qazilərimizin şücaəti sayəsində torpaqlarımızı azad etdik. Biz dövlət, qayda-qanun, düzən millətiyik, xaos, anarxiya milləti deyilik. Bizi irəli aparan güclü dövlət olub. Ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gələndə ilk işi dövlət qurmaq olub. Bizim inkişafımızın təməlində güclü dövlət dayanır. Bizim dövlətin güclü olması hər bir fərdin marağındadır. Dövlət bizim üçün müqəddəsdir. Bizim qələbəmiz də güclü dövlət sayəsində mümkün oldu. Bu, bütün türk dünyasının qələbəsi idi”.

HAZIRLADI

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

*“Bizim inkişafımızın təməlində güclü dövlət dayanır. Bizim dövlətin güclü olması hər bir fərdin marağındadır.”*

### “MİLLİ KADRLARIN HAZIRLANMASINA XÜSUSİ DİQQƏT YETİRİLDİ”

Şagirdlərdən birinin “Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 106 il ötür. Həmin tarixi dövrü qısa olaraq şərh etmiş olsanız ən vacib olan hansı məqamları qeyd edərdiniz?” sualına tarixçi-alim belə cavab verdi: “Cümhuriyyət elan edildikdən dərhal sonra milli hökumət yaradıldı. Xarici İşlər Nazirliyi, ordu, xüsusi xidmət orqanları yaradıldı, sərhəd və gömrük xidməti quruldu. Parlamentdə dövlət atributları - himn və bayraq qəbul edildi. Türk dili (Azərbaycan dili) dövlət dili elan edildi. Bakı Dövlət Universiteti yaradıldı, mədəniyyətə xüsusi diqqət yetirildi, teatrlar, kitabxanalar formalaşdırıldı. Milli kadrların hazırlanmasına xüsusi diqqət yetirildi. Cümhuriyyətin yaradıcıları çox böyük işlər gördülər”.





Fotolar: PhotoStock/Global Media Group

### “MÜƏLLİMİ HÖRMƏTDƏN SALMAQ OLMAZ”

Auditoriyadan ünvanlanan “Özünüzün məktəb və tələbəlik dövrünüzlə müqayisə etsəniz, hazırda məktəbin və müəllimin nüfuzu qaneedicidirmi?” sualının cavabı da maraqlı oldu: “Mən kənd məktəbində oxumuşam. Çətin şəraitdə oxuyurduq. Evdən məktəbə odun aparıb yandırırdıq. O məktəbdən çox böyük adamlar çıxdı. İndi dövlət sizin üçün hər cür şərait yaradıb. Ən ucqar kəndlərdə belə, gözəl məktəblər tikilib. Ancaq indi fərqli bir mənzərənin şahidi oluram və bu, məni üzür. Müəllim uşağı danlayanda valideyn məktəbə hücum çəkir. Bu, yanlışdır. Valideyn təkcə qapını açıb uşağı məktəbə yola salmamalıdır, övladı ilə maraqlanmalıdır. Məktəb-valideyn münasibətləri sıx olmalıdır. Müəllim hər şeyi öyrədə bilməz. Müəllim öyrətməyin yolunu öyrətməlidir. Mən sertifikatlaşmanın tərəfdarıyam. Heç kim Elm və Təhsil Nazirliyini qınamasın. Məktəblər sağlamlaşmalıdır. Müəllimi hörmətdən salmaq olmaz. Müəllim ustaddır. Ancaq dərs verməyən, ürəyini auditoriyaya verə bilməyən müəllim getməlidir”.

### “SAVADSIZLIQ ÖZÜ İLƏ CƏHALƏT, XURAFAT GƏTİRİR”

“Bugünkü gənclikdən razısınızmı?” - deyə soruşan şagirdə qonaq “Bizim çox istedadlı və bacarıqlı gənclərimiz var” cavabını verdi: “Təbii ki, hamısı general, alim, mühəndis olmayacaq, amma müəllimin üstünlüyü ondadır ki, onların arasından ağıllıları seçsin. Bir valideynin övladı savadsızdırsa, nəticəsi necə olacaq? Savadsızlıq özü ilə cəhalət, xurafat gətirir. Şagirdlə ilk növbədə valideyn məşğul olmalıdır, onu əməyə öyrətməlidir. Vacib deyil, mütləq hamı ali təhsil alsın. Almaniyada daha çox peşə təhsilinə üstünlük verirlər. Əsas gəncliyin zəhmətə, nizam-intizama öyrədilməsidir”.

UĞUR Kaspi 25 MAY ŞƏNBƏ 2024 9

13 YAŞINDA İLK İXTİRASINI EDƏN, 22 YAŞINDAN "GOOGLE"DA PROQRAM MÜHƏNDİSİ KİMİ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCANLI

# CİZGİ FİLMİ İLƏ HƏYATI DƏYİŞƏN VUNDERKİND




**İkram Gabıyev: "Google"un kampusunda, binanın girişində dinozavr maketi var. Maketin məqsədi odur ki, insanlar bilsinlər ki, hər gün inkişaf etməsək, sonumuz bu əjdaha kimi olacaq. Yəni yeniliklərə açıq olmasaq, yer üzündən silinəcəyik".**



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Deyir ki, uğurlu insanların əsas xüsusiyyətləri müəyyən qədər eqo, nailiyyətləri ilə kifayətlənməmək və insani keyfiyyətlərinin yüksək olmasıdır. Ona görə həddindən artıq eqolu olub, daim kiminləsə yarışmaq, bildiklərini bölüşməmək insanın işlədiyi quruma ən böyük zərbədir. Çünki uğurlu şirkətlər daxildə bir-biri ilə rəqabətdə olanlar deyil, komanda işini bacaranlar və bir-birinə dəstək olanlardır.

Müsahibimiz 13 yaşında ilk ixtirasını edən, 22 yaşından isə "Google"da proqram mühəndisi kimi fəaliyyət göstərən İkram Gabıyevdir.

Yeddi yaşından fizika, kimya və robototexnikaya maraq göstərib. Kiçik cihazları bir-birinə bağlayıb, yeni bir cihaz yaratmağa çalışırmış. Deyir ki, ancaq altıncı sinifdən sonra bu marağının gələcəkdə peşəsinə çevrilə biləcəyini anlayıb. "Ankara Məktəbi" məktəb-liseyində oxuyarkən direktor Səmayə Eynullayeva onun istedadını kəşf edib, olimpiadalara yönəldib. Yeddinci sinifdə qatıldığı ilk beynəlxalq olimpiadada birinci yeri tutub: "Babam alternativ enerji mütəxəssisi olduğu üçün onun sahəsinə də maraq göstərir, bununla bağlı robotlar düzəldirdim. Birinci yerə çıxana qədər heç bir olimpiada ilə maraqlanmırdım. Amma anladım ki, bu yarışlar vasitəsilə gənc alimlər, professorlarla ünsiyyət imkanlarım yaranır və ideyalarımın üstündə işləmək üçün fürsət qazanıram. Robototexnika ilə bağlı digər olimpiadalara da qoşuldum və yer tutdum. Daha sonra "Sabahın alimləri" respublika müsabiqəsinə müraciət etdim. Müsabiqənin şərtlərinə görə, səkkizinci sinifdən qoşulmaq mümkün deyildi. Direktorumuz mənə kömək etdi, onlarla ünsiyyətə keçdi və məni qəbul etdilər. İştirak etməyin mənim üçün böyük təcrübə olacağını gözlədiyim olimpiadada alternativ enerji ilə bağlı layihəm birinci yeri tutdu. Burada səkkiz istiqamət üzrə qaliblər olurdu, iki nəfəri isə ABŞ-yə beynəlxalq olimpiadaya göndərirdilər. Bu olimpiada çox əhəmiyyətli idi, finala çıxdıqda, gələcəkdə ABŞ universitetlərində nəticəni göstərməklə qəbul almaq olurdu. Məqsədimə çatdım, finala çıxdım, üç il sonra ABŞ-də bu nailiyyətimdən istifadə etdim".

Doqquzuncu sinifdə isə tibb sahəsində dönüş yarada biləcək layihə üzərində işləyir. İnsanda olan bağırsaq çöplərini asanlıqla tapıb, diaqnoz qoymaq üçün aparat ixtira edir. Bu aparatla olimpiadada yenə qalib olur. Beşinci sinifdən ABŞ-yə getməyi hədəfləyən İkram "Amherst Kollec"in kompüter elmləri ixtisasına qəbul olur.

*"Mən oxumağa atletin idmana yanaşdığı kimi yanaşıram. Bezəndə də oxumağa çalışırdım və düşünürdüm ki, əgər ən pis, motivasiyasız günümdə oxuya bilərəmsə, deməli, hər gün edə bilərəm."*

### "JİMMY NEUTRON"LA HƏYATI DƏYİŞƏN MƏKTƏBLİ

**● Olimpiadalarda qazandığınız medallar, ixtiralar gələcək təhsilinizdə necə rol oynadı? "ABŞ-dəki olimpiadada nailiyyətimdən üç il sonra istifadə etdim", - deyirsiniz. Necə istifadə etdiniz?**

● "Amherst Kollec"ə qəbulun 40 faizi imtahanlardan, 60 faizi məktəbdənkənar məşğul olduğumuz işlərdən asılı idi. Məhz bu nailiyyətlərimə görə, universitet mənə dörd illik tam təqaüd verdi. Təqaüd orada yaşamaqla birlikdə 80 min manat civarında idi. Şərtləri də o idi ki, kollecdə müəllim köməkçisi kimi işləməli idim. Üstəlik, bunun müqabilində ödəniş də edilirdi. Birinci kursdan professor Larri Hunterin laboratoriyasında çalışırdım. Daha sonra təhsil almaq üçün iki fakültə - fizika və kompüter elmlərini seçdim. Həmin müddətdə də boş dayanmır, "Android" üçün tətbiq düzəldirdim. Bununla yanaşı, kompüter elmləri ilə bağlı da kurs götürmüşdüm və kodlar üzərində işləyirdim. Yay vaxtı həm laboratoriyada işləyir, həm də CV-mi məşhur şirkətlərə göndərirdim. Ya məşhur şirkətdə işləməli idim, ya da PHD təhsili alacaqdım.

**● Yeddi yaşınızdan fərqlənməyə başlamısınız. 13 yaşınızda isə artıq karyera ilə bağlı hədəfləriniz olub. 13 yaşlı uşağın hədəfləri necə formalaşır?**

● Mənə elə gəlir ki, bu, uşaqlıqda valideynlərdən asılıdır. Yadımdadır, beş yaşımda "Jimmy Neutron" adlı cizgi filminə baxırdım. Orada uşaq orta məktəbdə oxuyurdu və fərqli cihazlar düzəldirdi. Marağımı anamla bölüşdüm. Anam həkimdir və həmin vaxt xaricdə konfransa getmişdi. Dedim ki, mənə oradan fizika ilə bağlı ensiklopediya gətir. O, mənim istəyimi reallaşdırdı, həmin ensiklopediya hələ də evimizdədir. Baxmayaraq ki, heç nə başa düşmürdüm, amma mən onu birinci sinifdən beşinci sinfə qədər təkrar-təkrar oxuyurdum. Bilirdim ki, nə vaxtsa anlayacam. Yadımdadır, o vaxt metronun "Sahil" stansiyası tərəfdə detallar satılan mağaza var idi. Anamla babamı hər dəfə oraya aparır, detallar aldırırdım. Onları bir-birinə calayıb, özüm üçün kiçik ixtiralar edirdim. Dördüncü sinifdə dərsdən əlavə fizika dərslərinə qoşulur, dinləyirdim. Müəllimlərim təəccüblənirdi, həqiqətən heç nə anlamırdım, amma bezmirdim və öyrənmək istəyirdim.



### "YENİLİKLƏRƏ AÇIQ OLMASAQ, YER ÜZÜNDƏN SİLİNƏCƏYİK"

**● Sizcə, o vaxt valideyniniz sizi ciddiyə almayıb, ensiklopediyanı, cihaz üçün detalları almasa idi, bu gün istədiyiniz yerdə olardınızmı?**

● Xeyr. Anam o vaxt mənim ixtira həvəsimə inanmaya, gülüb keçə bilərdi, amma yenə də dəstəklədilər. Uşağın marağı hər an, hər yerdə yarana bilər. Məncə, onu uşaqlıqdan ciddiyə almasalar, maraqlarını basdırmağa çalışıb, fərqli yerlərə yönləndirsələr uğur qazanmağı çətin olar. Bəli, düşünürəm ki, ailəm məni o vaxt ciddiyə aldığı üçün bu gün buradayam. İbtidai sinifdə onsuz da heç kim ciddi nə isə icad edən deyil. Amma onlar mənim motivasiyamı salmadılar, inandılar, dəstəklədilər. Altı, yeddinci sinifdə bu fənləri oxumağa başlayanda artıq məni başqaları da ciddiyə alırdılar. Amma bünövrə məhz o cizgi filmiylə qoyuldu.



## "İMTİNA GÖNDƏRMƏLƏRİNƏ İNANA BİLMİRDİM"

**● "Bezmirdim, öyrənmək istəyirdim" deyirsiniz. Heç "bəsdir, çox oxudum" demisiniz?**

● Mən oxumağa atletin idmana yanaşdığı kimi yanaşıram. Bezəndə də oxumağa çalışırdım və düşünürdüm ki, əgər ən pis, motivasiyasız günümdə oxuya bilərəmsə, deməli, hər gün edə bilərəm. Həmişə cədvəlim olub, o cədvəldə mütləq bir saat əlavə oxumaq, araşdırmaq vaxtım olub. Xoşuma gəlməyən fənləri oxuyanda da məhz bu vərdiş mənə kömək olurdu. Musiqidən idmana, riyaziyyatdan fizikaya qədər hər şeyi oxuyurdum. Yorulmaq mənim üçün yeni nə isə öyrənməməyə səbəb deyil. Özümü yeniləməsəm, əskik hiss edirəm. "Google"un kampusunda, binanın girişində dinozavr maketi var. Maketin məqsədi odur ki, insanlar bilsinlər ki, hər gün inkişaf etməsək, sonumuz bu əjdaha kimi olacaq. Yəni yeniliklərə açıq olmasaq, yer üzündən silinəcəyik. Mən həmişə bunu yadda saxlayıram. Elm, araşdırma da belədir. Dayansam, geri qalmaqdan qorxuram.

### "GOOGLE" BU EQOMU SINAĞA ÇƏKDİ"

**● Əslində, məqsədlərinizdən biri PHD təhsili olub. Bəs "Google" ilə yolunuz necə kəsişdi?**

● Birinci kursda oxuyanda universitetimizin "Google"da işləyən məzunları şirkətlə bağlı təqdimat edirdilər. O vaxt yadımdadır, üzərində "Google"un loqosu olan suvenirlər gətirmişdilər . O suvenir indiyə kimi çantamın üzərindədir. O vaxtdan artıq burada işləməyi qarşıma məqsəd qoymuşdum və iş üçün dəfələrlə müraciət edirdim. Lakin həmin dövrdə "Google" müraciətlərimə imtina göndərirdi. Hətta sonucu dəfə Varşava ofisində işləmək üçün müraciət etmişdim. "Google" üçün Polşaya gedəcəkdim. Yeddi müsahibədən sonra oradan da imtina göndərdilər. Dördüncü kursda artıq CV-mi təkmilləşdirdim, çatışmazlıqlarımın üzərində işlədim və yenidən müraciət etdim. Cavab iki-üç ay sonra gəldi. Mənə maraqlı olan komandanı və sahəni seçib işləməyə başladım.

**● İmtinalar sizi motivasiyadan salmırdı?**

● İlk vaxtlar mənə çox pis təsir edirdi. Mənə imtina göndərmələrinə inana bilmirdim. Çünki birinci, ikinci kursda özümdən çox razı idim. Bakıda yaxşı oxumuşam, qızıl medalla bitirmişəm, olimpiada qalibiyəm, ixtiralarım var, burada professorlarım məni tərifləyir, elə bilirdim ki, mənə heç kim "yox" deməz. "Google" bu eqomu sınağa çəkdi. Artıq başa düşdüm ki, səhv məndədir, üzərimdə işləməyə başladım. Yeni layihələr həyata keçirir, professorlarla işləyirdim. ABŞ-də bir fənnlə bağlı işləmək, onu mükəmməl bilmək göstərici deyil. İnsan fərqli sahəni də bilir, maraqlanırsa, deməli, ağıllıdır. Laboratoriyalarda işləməyim CV-mi təkmilləşdirmişdi. İldən-ilə görürdüm ki, ötən il göndərdiyim CV heç nədir. Hətta mən də onların yerində olsam özümü işə götürməzdim. Dördüncü kursda artıq optimal vəziyyətə çatdım və istədiyim komanda ilə işlədim.

## "İNSANDA EQO OLMALIDIR, AMMA..."

**● Eqonuzun pik həddindən "mən də olsam, özümü işə götürməzdim" mərhələsinə necə gəldiniz? Yəni, eqonuzu necə idarə etdiniz?**

● Məncə, uğurlu insanların bir neçə xüsusiyyəti var. Birincisi odur ki, onlarda hansısa miqdarda eqo olur. Yəni öz sahələrində əhəmiyyətli olduğuqlarını düşünürlər. Eyni zamanda da nailiyyətləri ilə kifayətlənmirlər. Düşünürlər ki, yuxarı pillədəyəm, amma bu, bəs deyil. İnsanda eqo olmalıdır, amma bu, "mən artıq ən yaxşıyam, məndən yoxdur" səviyyəsində olmamalıdır. Uğurlu insan bilikləri ilə kifayətlənməyən insandır. Mən bunu ABŞ-yə gələndən sonra anladım. Bütün bunların önündə dayanan ən önəmli xüsusiyyət isə xeyirxahlıqdır. Yəni insan birinci insan olmağı bacarmalıdır. Mənim eqomu da məhz burada öyrəndiklərim, ətrafımda gördüklərim qırdı. Burada öyrəndiyim ən əhəmiyyətli xüsusiyyət sağlam rəqabətdir. Ən uğurlu şirkətlər şirkət daxilində bir-biri ilə rəqabətdə olanlar deyil, komanda işini bacaranlar və bir-birinə dəstək olanlardır.

**● "Google" bu şirkətlərdəndir?**

● Bəli. Bu, işə qəbul prosesində ciddi şəkildə yoxlanılır. Sən mükəmməl biliklərə sahib ola bilərsən, texniki biliklərin də yüksək səviyyədə ola bilər, amma şirkətin "Googleyness" adlı müsahibəsində bal toplaya bilmirsənsə, bütün xüsusiyyətlərinin üstündən xətt çəkilir. Sən işi mükəmməl bilə bilərsən, amma biliklərini bölüşməyi bacarmırsansa, komanda yoldaşına dəstək ola bilmirsənsə, bu şirkətə lazım deyilsən. Çünki komanda üçün ən pis olan komandada işləməyi bacarmayan insandır. Belə insanlar bütün komandanın motivasiyasını salır, iş prosesinə ciddi şəkildə mane olurlar. Ona görə bir insanda insani keyfiyyətlər ən önəmlisidir. Məsələn, "Google"da heç kim oturub bütün kodları sıfırdan yazmır. Hamı bir-birindən dəstək alır, bildiklərini bölüşür, yararlı olmağa çalışır. Heç bir şirkətə neqativ auralı, daim özünü düşünən, komanda yoldaşını aşağı çəkməyə çalışan işçi lazım deyil.

### "DOSTLARIM HƏMİŞƏ AĞILLI, SEÇİLƏN OLUBLAR"

**● "Karyeramda ətrafımda olan ağıllı adamların dəstəyi böyükdür" deyirsiniz. Dostlarınızı seçərkən öz sahəsində seçilən olmasına diqqət edirsiniz, yoxsa sizin üçün fərqi yoxdur?**

● Bəli, çox diqqət edirəm. Ünsiyyətdə olduğumuz dörd ən yaxın insanın orta intellektini hesablasaq, beşinci adamın intellekti o olacaq. Ona görə də çalışmışam dostlarımı diqqətlə seçim. İbtidai sinifdə ağıllı adamlarla əhatələnməkdə bəxtim gətirib, amma universitet illərində artıq buna fikir verməyə başlamışam. Dostluq bir-birindən öyrənmək, motivasiya almaq, həyatı bölüşməkdir. Məsələn, üçüncü kursa qədər "Google"da bu gün işlədiyim koda marağım yox idi. Serbiyalı dostum kompüter elmləri fakültəsində idi. Mən fizika üzrə, o da kompüter elmləri ilə bağlı professorla işləyirdi. Onun elmi işini oxuya-oxuya bu sahəyə marağım yarandı. Bəlkə də onunla dostluğumun sayəsində bu gün buradayam. Hər insandan bəzən müsbət, bəzən pis nə isə öyrənirik. Dostlarım həmişə ağıllı, seçilən olublar.



# FRANSA ÜÇÜN YENİ KALEDONİYA KABUSU



AZƏR NURİYEV

Əksər ekspertlər hesab edirlər ki, beynəlxalq hüquq baxımından Yeni Kaledoniya Fransa ərazisi deyil. BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa tərəfindən idarə olunan bir ölkədir. Ada sakinlərinin öz müqəddəratlarını təyin etmək hüququ var.

Fransanı izləyən uğursuzluqlar seriyası davam edir. Keçmiş müstəmləkələrindən - Nigerdən, Qabondan biabırcasına qovulan Emmanuel Makron hökuməti yeni-yeni uğursuzluqlarla üzləşməkdədir. Artıq Yelisey sarayının biabırçılıqları siyahısına Yeni Kaledoniyanı da əlavə etmək olar. Məsələ ondadır ki, son günlər Paris bu bölgədə ciddi problemlər yaşayır. Artıq bir həftədən artıqdır ki, Fransa dinc əhaliyə qarşı törətdiyi vəhşiliklərlə gündəm olub. Səngimək bilməyən aksiyalara polisin ifrat müdaxiləsi nəticəsində 10-a yaxın insan həyatını itirib, 200 nəfərdən çox etirazçı saxlanılıb. Etirazlar zamanı sahibkarlara dəyən zərərin məbləğinin bir milyard avroya çata biləciyi vurğulanır. Bölgədə 12 gün müddətinə fövqəladə vəziyyət elan edilib. Fransa prezidenti Emmanuel Makron qanlı hadisələrdən on gün sonra baş verənlərə özünəməxsus qaydada reaksiya verib. Qanla boğmağa çalışdığı Yeni Kaledoniyada "asayişin bərpasında aydın irəliləyiş" olduğunu qeyd edib. Mediada yer alan xəbərlərə görə, prezident etirazları yatırtmaq üçün adaya əlavə ordu birləşmələri göndərmək qərarının qəbuluna nail olub. Bildirilib ki, ictimai binaları qorumaq və bununla da daxili təhlükəsizlik qüvvələrini müvəqqəti olaraq hərbi qüvvələrlə əvəz etmək üçün "əlavə resurslardan" istifadə ediləcək.

### MAKRON İMZALANAN MÜQAVİLƏLƏRİ POZUR

Məlumat üçün bildirək ki, Yeni Kaledoniyada yerli əhali olan kanaklar və gəlmə Fransa vətəndaşları birlikdə yaşayırlar. Ada xüsusi administrativ ərazi vahidi olduğu üçün kanakların bir sıra üstünlükləri var. Makron hökuməti isə müstəqillik və sair ilə bağlı keçiriləcək referendumların nəticəsini dəyişmək üçün Fransadan gələnləri də yerli əhali kimi təqdim edir. Onlar da, öz növbəsində Kaledoniyanın Fransanın tərkibində qalmasına səs verirlər. Bu mübarizə artıq uzun illərdir ki, davam edir. Yeni Kaledoniyanın təxminən 300 min əhalisi var. Sakinlərin 40 faizini kanaklar təşkil edir. Adada təxminən 40 mindən çox fransız yaşayır. 1998-ci il "Numea müqaviləsi"nə əsasən, Fransa bölgəyə daha çox siyasi muxtariyyət verməyə, əyalət və parlament seçkilərində səsverməni "yalnız o vaxtkı sakinlərlə" məhdudlaşdırmağa razılaşıb.




### KALEDONİYA FRANSA MÜSTƏMLƏKƏSİ OLMAQ İSTƏMİR

Məsələ ondadır ki, artıq ada əhalisi əvvəlki qaydada yaşamaq istəmir, Fransa isə buna qarşı çıxır. Yeni Kaledoniyada müstəqillik üçün dörd dəfə referendum keçirilib, boykotdan öncəki səsvermədə kiçik fərqlə (53,26%) Fransanın tərkibində qalmaq istəyənlər qalib gəlib. Buna baxmayaraq, müstəqillik istəyənlərin sayı getdikcə artır.

Qeyd edək ki, "Numea müqaviləsi"nin imzalanmasından sonra adada sonuncu referendum 2021-ci ilin dekabrın 12-də keçirilib. Lakin səsvermə yerli kanak xalqının böyük hissəsi tərəfindən boykot edilib. Nəticədə səs verənlərin 96 faizi müstəqilliyə "yox" deyib və bu da Yeni Kaledoniyanın Fransanın bir hissəsi kimi qalmasına gətirib çıxarıb. Bu ilin mayında isə Yeni Kaledoniya ərazisində təklif olunan seçki islahatı ətrafında müzakirələr zamanı iğtişaşlar baş verib. Referendumlar nəticəsində əldə edilən statistikalardan göründüyü kimi, Fransa bu ada dövləti zor gücü ilə öz təsir dairəsində saxlamaq istəyir.

Əksər ekspertlər hesab edirlər ki, beynəlxalq hüquq baxımından Yeni Kaledoniya Fransa ərazisi deyil. BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa tərəfindən idarə olunan bir ölkədir. Onun öz müqəddəratını təyin etmək hüququ var.

## BU GÜN MÜBARİZƏ NİKEL UĞRUNDA GEDİR

Bəs min kilometrlərlə uzaqda olan Yeni Kaledoniya Fransa üçün niyə bu qədər cəlbedicidir? Məsələ ondadır ki, burada Fransa üçün əhəmiyyətli olan nikel yataqları var. Ərazi nikel yataqlarının böyüklüyünə görə dünyada ilk onluğa daxildir. Rəsmi Paris bu yataqları hərtərəfli şəkildə istismar edir, amma qarşılığında Yeni Kaledoniya büdcəsinə çox az ödəniş edilir. Yeni Kaledoniyada dünyada təsbit edilmiş nikel yataqlarının 25%-i yerləşir. Bu gün nikelin bir tonunun qiyməti dünya bazarında 21150 dollara yüksəlib. Nikel "yaşıl enerjiyə" və elektrik avtomobillərinə keçid üçün əsas faydalı qazıntılardan biridir. Yeni Kaledoniyanın faydalı qazıntılarına Çin və Britaniya-ABŞ koalisiyası da iddia edirlər. Çinin adaya təsir mexanizmləri yoxdur. Çünki adanın əhalisi xristianlardır, burada yaşayan çinlilərin sayı isə çox azdır. ABŞ-Britaniya koalisiyasının isə adaya həm maddi, həm də siyasi təsir mexanizmləri var. Əgər Yeni Kaledoniya tam müstəqil olsa, çox güman ki, bu koalisiyanın təsiri altına düşəcək.



## BEYNƏLXALQ İCTİMAİYYƏT DƏ SUSQUNLUĞUNU POZUR

Beynəlxalq birlik hələ də adada baş verənlərə göz yumur. BMT və beynəlxalq təşkilatlar, eləcə də Sakit Okean hövzəsi ölkələrinin rəhbərləri bölgədə baş verənlərə reaksiya vermirlər. Yalnız aksiyalardakı insan ölümlərindən sonra Beynəlxalq Amnistiya Təşkilatı (BAT) hərəkətə keçib. Qurum Fransanı Yeni Kaledoniyanın yerli xalqı - kanakların hüquqlarını qorumağa çağırıb. Təşkilatın Sakit okean bölgəsi üzrə araşdırmaçısı Kate Şutze Fransanın Yeni Kaledoniyada "TikTok" sosial media platformasının qadağan ediləcəyi ilə bağlı açıqlamalarına toxunub. Bildirib ki, əsaslı tələb olmadığı təqdirdə bu addımın atılması ifadə azadlığının pozulması kimi qiymətləndirilməlidir: "Etirazlara cavab olaraq qadağaların tətbiqi dünya hökumətləri üçün təhlükəli presedent yarada bilər. Fransa baş verənlərə ciddi reaksiya verməlidir. Hakimiyyət kanak xalqının yaşamaq və ifadə hüquqlarını qorumalı, müstəqillik istəyən insanlar öz fikirlərini dinc yol ilə ifadə edə bilməlidir".




## SOCAR və “Baker Hughes” birgə mərkəz yaradır

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) neft və qaz hasilatı üzrə strukturu “Azneft” İstehsalat Birliyi və ABŞ-nin “Baker Hughes” şirkəti Azərbaycanda sualtı elektrik mərkəzdənqaçma sualtı nasoslarının yığılması və texniki xidməti üzrə birgə mərkəzin yaradılması barədə razılığa gəliblər. Bu barədə “Report”a SOCAR-dan məlumat verilib.

“Bakıda “Baker Hughes” ESP texnologiyasının Azərbaycanda tətbiqi və elektrik mərkəzdənqaçma sualtı nasoslarının yığılması, təmiri və texniki xidməti üzrə ölkədə birgə mərkəzin yaradılması üzrə Öhdəlik Məktubunun imzalanması mərasimi keçirilib”, - deyə SOCAR-ın məlumatında qeyd edilib.

Müqavilə mayın 22-də “Baker Hughes” şirkətinin Xəzər regionu üzrə direktoru Karlo Beltram və SOCAR-ın “Azneft” İstehsalat Birliyinin baş direktoru Əli Qurbanov arasında imzalanıb.

“Bütün hasilat proseslərini optimallaşdırmaqla səmərəliliyin artırılması və karbohidrogen hasilatının artırılması üçün şirkətlər arasında da razılıq əldə olunub”, - məlumatda deyilir.

Xatırladaq ki, “Baker Hughes” dünyanın aparıcı neft və qaz xidmətləri şirkətlərindən biridir. Şirkətin xidmətlərinə qazma, ehtiyatın qiymətləndirilməsi, yataqların işlənməsi və s. daxildir. Onun qərargahı ABŞ-nin Texas ştatının Hyuston şəhərində yerləşir. Şirkətin 120-dən çox ölkədə 54 000 işçisi var.

# KÜÇƏ UŞAQLARI İLƏ BAĞLI BÖYÜK LAYİHƏ

Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi və “Regional İnkişaf” İctimai Birliyi tərəfindən küçə uşaqları ilə bağlı böyük layihənin icrasına başlanılıb. Belə uşaqların çoxu qeydiyyatsız evlərdə, gecəqondularda yaşayırlar.

Uşaq hüquqları ilə bağlı qanun layihəsi artıq aidiyyəti qurumların rəy mərhələsindədir. “Report” xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva “Yetkinlik yaşına çatmayanlar tərəfindən və onlara qarşı törədilmiş hüquq pozuntularının qarşısının alınması: imkanlar və perspektivlər” mövzusunda elmi-praktiki konfransda çıxış edərkən deyib. O qeyd edib ki, qanun layihəsində uşaqlarla bağlı inzibati və məhkəmə icrası ilə əlaqədar yeni tələblər yer alıb.



### KOMİTƏ, NAZİRLİK VƏ QHT-NİN BİRGƏ LAYİHƏSİ

Sədr müavini həmçinin bildirib ki, Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi və “Regional İnkişaf” İctimai Birliyi tərəfindən küçə uşaqları ilə bağlı böyük layihənin icrasına başlanılıb. O qeyd edib ki, mətbuatda çətin vəziyyətdə olan uşaqlarla bağlı mütəmadi məlumatlar yayımlanır: “Bəzən urbanizasiyanın nəticəsində aşkar olunmayan, amma dəstəyə ehtiyacı olan uşaqlarla bağlı məlumat alırıq. Onların çoxu qeydiyyatsız evlərdə, gecəqondularda yaşayırlar. Ona görə, Rayon İcra Hakimiyyətlərinin yerlərdəki nümayəndələrinin daha fəal olmasını istəyirik”.


Aynur Sofiyeva

Sədr müavini əlavə edib ki, hüquq pozuntuları törətmiş, çətin tərbiyə olunan uşaqlarla iş zamanı psixoloqların prosesə cəlb edilməsi çox vacibdir: “Uşaqlarla iş məsələsində polis əməkdaşları ilə yaxşı işləyirik. Amma polis orqanlarında qadın əməkdaşların sayının artırılması işimizin xeyrinə ola bilər”.

### MÜHÜM SƏNƏDLƏR QƏBUL OLUNACAQ

A.Sofiyeva bildirib ki, “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası” əsasında mühüm sənədlərin qəbulu da nəzərdə tutulur. O qeyd edib ki, artıq iki sənəd qəbul olunub: “Bunlar fövqəladə hallarda, pandemiya və sair durumda uşaqların təhsilə və digər sosial xidmətlərə əlçatanlıqda bərabərliyinin təmin edilməsi və xarici ölkələrdəki yetkinlik yaşına çatmayan Azərbaycan vətəndaşlarının ölkəmizə repatriasiyası haqqında sənədlərdir. Növbəti üç sənəd isə demək olar ki, son mərhələdədir. Bu il həmin sənədlər də qəbul olunacaq”.

# “NAR” SOSİAL LAYİHƏLƏRİ DƏSTƏKLƏMƏYİ DAVAM ETDİRİR

“Nar” cəmiyyətin sosial və iqtisadi həyatına müsbət dəyişikliklər gətirən faydalı layihələrə dəstəyini fəal şəkildə davam etdirir. Azərbaycanı BMT-nin Qlobal Sazişində təmsil edən ilk telekommunikasiya brendi kimi “Nar” BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasını təşviq etmək və təhsilə dəstək istiqamətindəki Korporativ Sosial Məsuliyyət (KSM) layihələrinə xüsusi önəmlə yanaşır.




Mobil operator üçün sosial layihələrin əhəmiyyətini vurğulayan “Nar”ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib: “Korporativ sosial məsuliyyət biznes olaraq strategiyamızın əsas sütunlarından biridir. Təkcə 2023-cü ildə biz 30 sosial təşəbbüsü dəstəkləmişik, son üç ildə isə sosial layihələrə 10 milyon manatdan çox sərmayə yatırmışıq. Bu, bizim cəmiyyətdə müsbət dəyişiklik etmək öhdəliyimizə sadiqliyimizi göstərir. “Nar” olaraq gələcəkdə də müxtəlif sosial layihələr həyata keçirməyə davam edəcəyik”.

“Nar”ın dəstəyi ilə ərsəyə gətirilən ilk Azərbaycan jest dili elektron lüğəti - “jestdili.az” 30 mindən çox eşitmə və nitq məhdudiyyətli azərbaycanlıya Azərbaycan jest dilini tamamilə pulsuz öyrənmək imkanı verib. “Jestdili.az” əvəzsiz və faydalı resurs olmasına görə beynəlxalq dərəcədə də yüksək qiymətləndirilib və “Korporativ Məsuliyyət” kateqoriyasında ən uğurlu layihə kimi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyasının “Qızıl Dünya Mükafatı”na layiq görülüb.

“Nar” sosial təşəbbüslərin həyata keçirilməsinə davamlı olaraq öz töhfəsini verir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1163
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

KARTOFUN QİYMƏTİ İLƏ BAĞLI HANSI PROQNOZLAR VAR?

# FERMERLƏRİN ÜZÜ GÜLÜR

**Sahələrdən kartof yığımına start verilib. Bazarlardakı qiymətlər fermerlərin üzünü güldürür, alıcılar isə məyusdur. Ekspertlər bu vəziyyətin müvəqqəti olduğu qənaətindədirlər.**

SEVİNC ABBASOVA

Azərbaycanın bəzi bölgələrində təzə kartof yığımı başlayıb. Fermerlərin sözlərinə görə, bu il ötən illə müqayisədə məhsuldarlıq nisbətən zəif olsa da, qiymətlər yüksəkdir. Bu səbəbdən mövsümü yaxşı qazancla başa vuracaqlarına ümid edirlər.

Qeyd edək ki, ölkəmizdə kartofa illik tələbat 800-840 min ton təşkil edir. Bu isə aylıq 65-70 min ton tələbat deməkdir. Adətən, illik tələbatın 90 faizi yerli istehsal, digər 10 faiz isə idxal mənbələri hesabına ödənilir. Bəs, görəsən, bu il ümumiyyətlə, bölgələrdə məhsuldarlıq necədir? Qiymətlərlə bağlı hansı proqnozlar var? Bu sahədə ixrac imkanları nə yerdədir?

### "MƏHSULDARLIQ AZALIB, AMMA QİYMƏTLƏR YAXŞIDIR"

Cəlilabadlı fermer Vüqar Musayev deyib ki, bu il dörd hektar sahədə kartof becərib. O, bir hektardan təxminən 40 tona yaxın məhsul əldə edəcəyini proqnozlaşdırıb: "Keçən il hər hektara 45 ton məhsul götürmüşdük. Amma mövsümü ziyanla başa vurduq. Çünki qiymətlər həddindən çox aşağı idi. Bu il ötən ilə nisbətən məhsuldarlıq azalıb. Amma qiymətlər yaxşıdır. Əgər belə davam edərsə, məhsuldarlığın aşağı olmasına baxmayaraq, mövsümü qazancla başa vuracağımızı düşünürük".

Fermer qeyd edib ki, hazırda sahələrdə təzə kartofun bir kiloqramının topdansatış qiyməti 80-90 qəpik arasında dəyişir: "Bir müddət əvvəl qiymət 60 qəpiyə qədər düşmüşdü. O qiymət bizi qane etmirdi. Biz bu il daha çox "Arizona" sortuna üstünlük vermişik, satışı da yaxşı gedir. Həm yerli bazarlara, həm də Rusiyaya kartof satırıq".

V.Musayev bildirib ki, hər hektara təxminən 12 min manat vəsait xərcləyib: "Güman edirəm ki, indiki qiymətlər çəkdiyim xərci tamamilə qarşılayacaq, qazanc da qalacaq".

### CƏLİLABADDA GÜNDƏLİK 20 YÜK MAŞINI KARTOF SATILIR

Qeyd edək ki, bu il Cəlilabad rayonunda 2 800 hektar sahədə kartof əkilib. Cəlilabad Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən aldığımız məlumata görə, artıq 760 hektar sahədən məhsul yığılıb. İndiyədək əldə olunan məhsulun həcmi 16 400 tondur. Həmin məhsulun 14 659 tonu ixrac edilib. Gün ərzində 20 yük maşını, 400 ton məhsul satılır. Ümumilikdə indiyədək 711 yük maşını məhsul daşınıb.




### XARİCİ BAZARLARA ÇIXMAQ ÜÇÜN BOL MƏHSUL OLMALIDIR

Aqrar sahə üzrə ekspert Mircavid Həsənov hesab edir ki, Azərbaycanın kartofa olan illik tələbatının yerli istehsal hesabına ödənilməsi hələlik mümkün deyil: "Düzdür, son illər bu sahədə inkişaf var, daha məhsuldar toxumlardan istifadə olunduğu üçün istehsal xeyli artıb. Eyni zamanda, bəzi ölkələrə az da olsa, kartof ixrac edirik. Amma hələ ki, idxaldan asılıyıq. Bazarlarda Rusiya, Belarus kartofu üstünlük təşkil edir. Xarici bazarlara çıxmaq üçün bol məhsulumuz yoxdur. Bu, yəqin ki, növbəti 5-6 ildə də belə davam edəcək. Kartofa olan illik tələbatımızı yerli istehsal hesabına ödədikdən sonra xarici bazarlara çıxa biləcəyik. Azərbaycanın kənd təsərrüfatı məhsullarına MDB ölkələrində, xüsusilə Rusiyada böyük maraq var. Yəni, məhsul olarsa, alıcı tapmaq çətin deyil".

### KARTOF GƏLİRLİ SAHƏ OLSA DA...

M.Həsənovun fikrincə, kartof kifayət qədər gəlirli sahədir. Sadəcə, yüksək məhsuldarlığın əldə edilməsi üçün münbit şərait olmalıdır: "Hər yerdə kartof əkmək olmur. Məsələn, Gədəbəydə kartof dəmyə halında əkilir. Tovuzda, Şəmkirdə isə becərilmə prosesində süni suvarmadan istifadə edilir. Son illər müşahidə edirik ki, məhz bu zonalarda fermerlər daha çox bağçılıqla məşğul olmağa üstünlük verirlər. Çünki bu sahədə gəlir daha çoxdur. Fermer də istər-istəməz gəlirin daha çox olduğu sahəyə investisiya yatırmaqda maraqlıdır. Biz onu məcbur edə bilmərik ki, kartof əksin".



Mircavid Həsənov

## "İNDİKİ QİYMƏTLƏR İSTEHLAKÇILARI QORXUTMAMALIDIR"

İqtisadçı Akif Nəsirli isə deyib ki, yaxın bir neçə həftə ərzində təzə kartofun topdansatış qiyməti ucuzlaşacaq. Onun sözlərinə görə, hazırda bazarda təklif olunan məhsul faraş kartofdur: "Faraş kartof əsasən Cəlilabad zonasında becərilir. Bu il həmin zonada təzə kartofun baha satılması həm də əkin sahələrinin azalması ilə bağlıdır. Belə ki, ötən il Cəlilabadda 6000 hektara yaxın sahədə kartof əkilmişdi, bu il isə 3000 hektara yaxın sahədə kartof əkilib. Yaxın bir neçə həftə ərzində digər rayonlarda kütləvi kartof yığımına başlanılacaq. Nəticədə topdansatış qiymətləri ucuzlaşacaq".



Akif Nəsirli

İqtisadçının sözlərinə görə, bu il məhsuldarlığın bol olacağı proqnozlaşdırılır: "Sadəcə, son iki həftədir ki, havalar qeyri-sabit keçir. Bu da kütləvi yığıma başlama prosesini ləngidir. İndiki qiymətlər istehlakçıları qorxutmamalıdır. Bir müddətdən sonra təzə kartofun bir kiloqramı 50-60 qəpiyə qədər ucuzlaşacaq. Yəni qiymətlər təxminən ötən illə müqayisədə eyni səviyyədə olacaq. Payıza doğru isə inflyasiya ilə bağlı 10 faizə yaxın bahalaşma müşahidə ediləcək".

### "ƏSAS HƏDƏF ONDAN İBARƏTDİR Kİ..."

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, yaxın bir neçə ayda kənd təsərrüfatı məhsullarının qiymətində ucuzlaşma müşahidə olunacaq: "Bu, mövsümlə bağlı bir məsələdir. Artıq bazara yeni məhsullar çıxır. Müşahidələr onu deməyə əsas verir ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil artır. İqtisadi baxımdan istehsalın artması həm də qiymətlərin azalmasına səbəb olmalıdır. Ümumiyyətlə, gözlənti ondan ibarətdir ki, mövsüm dövründə aqrar məhsulların qiymətlərində azalmalar müşahidə edəcəyik. İndi əsas hədəf ondan ibarətdir ki, bazarda süni qiymət artımı olmasın. Qiymət həm istehsalçını, həm də istehlakçını qane etməlidir".



Vüqar Bayramov

Foto: Firudin Səlimov/Global Media Group

# ŞƏKƏR DƏRMANLARI NİYƏ YOXA ÇIXIB?

İlin əvvəlindən başlayaraq şəkər xəstələri poliklinikalardan pulsuz dərman almaqda əziyyət çəkirlər. Ekspertlər məsələni dövlət satınalmaları üzrə özəl şirkətlərlə dövlət müəssisələri arasında yaşanan problemlərlə izah edirlər.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Şəkər xəstəliyindən əziyyət çəkirəm. Qeydiyyatda olduğum poliklinikadan sonuncu dəfə yanvar ayında dərman verilib. Hər dəfə müraciət edəndə “yoxdur”, “hələ gəlməyib” kimi cavablar alıram. Bu günlərdə isə sorğuma poliklinikadan “daha dərman olmayacaq” cavabını verdilər”.

Redaksiyamıza müraciət edən Bakı şəhəri, Nizami rayon sakininin şikayəti son aylar bu mövzuda səslənən çoxsaylı narazılıqlardan biridir. Xəstələrin məlumatına görə, onlar şəhər və rayon poliklinikalarında insulin və digər pulsuz dərmanların verilməsində uzun fasilələrlə üzləşirlər. Növbələrdə “Dərmanlar yoxa çıxıb”, “qanda şəkəri ölçən cihazlar (qlükometrlər), test striplər və dərman preparatları apteklərə satılır və ya öz tanışlarına verirlər” kimi fikirlər də səslənir. Sosial platformalarda da problemlə bağlı bu tipli status və rəylər artmaqdadır.

Hövsan qəsəbəsində yaşayan xəstə bizimlə söhbətində “əvvəl 2 qutu insulin alırdım, indi 1 qutu verilir. Bir qutunu da öz təqaüdümlə alıram. Elə xəstələr var ki, onlara dərman ümumiyyətlə çatmır”, - deyə bildirdi.

Qeyd edək ki, ölkəmizdə şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təchizatı “Şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı” çərçivəsində həyata keçirilir. Qanun bu tip insanlara dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyən etməklə yanaşı, xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin sonuna tibb müəssisələrində qeydiyyatda olan diabetli şəkər xəstələrinin sayı 385 179 nəfərdir ki, onlardan 1 044 nəfər insulindən asılı, 29 456 nəfər isə insulindən asılı olmayan şəkərli diabet xəstələridir.

**“GƏRƏK BİZƏ DƏRMAN VERİLSİN Kİ...”**

Əlaqə saxladığımız şəhər və rayon poliklinikaları da problemin mövcud olduğunu etiraf etdilər.

Nizami rayon 18 saylı birləşmiş şəhər xəstəxanasında son bir ay ərzində dərman verilmədiyini bildirdilər: “Dərmanları TƏBİB verir. Amma son bir ayda dərman təminatı olmadığı üçün biz də xəstələrə verə bilmirik”, - deyə telefonu qaldıran xanım sualımıza konkret cavab verdi.

Şirvan Şəhər Mərkəzi Xəstəxanasında əlaqə saxladığımız xanım da onlara dərmanların verilmədiyini söylədi: “Gərək TƏBİB bizə dərman versin ki, biz də xəstələrə verək. Son aylar dərmanlar nədənsə verilmir”.

## “HEÇ BİR MÜRACİƏT DAXİL OLMAYIB”

Maraqlıdır, diabet xəstələrinə dərmanların verilməsində uzun fasilələr nədən yaranıb? Dərmanların ölkəyə gətirilməsində hansı çətinliklər var? Xəstələrə verilən “daha dərman olmayacaq” cavabı reallığı nə qədər əks etdirir?

Mövzu ilə bağlı Tibbi Ərazi Bölmələrinə Nəzarət İdarəsinə (TƏBİB) ünvanladığımız suallara “Dərman preparatlarının satınalması proseduru keçirilib. Tibb müəssisələrinin təqdim etdiyi tələbnaməyə uyğun olaraq cari ay üzrə dərmanların paylanılmasına qısa müddətdə başlanılacaq. Hazırda istehlakçı şirkətlə müqavilə imzalanma mərhələsindədir”, - cavabını aldıq.

Maraqlıdır ki, Milli Məclisin Səhiyyə Komitəsinin üzvləri hələ məsələdən xəbərsizdirlər. Millət vəkili Kamilə Əliyeva bildirib ki, problem barədə məlumatsızdır. “Şəxsən mənə bununla əlaqədar heç bir müraciət daxil olmayıb”, - deyə millət vəkili bildirib. Millət vəkili Müşfiq Məmmədlinin köməkçisi “Mövzu ilə bağlı TƏBİB-lə əlaqə saxlamağınız daha məqsədə uyğundur”, - deyə bildirib.

## “BU O DEMƏK DEYİL Kİ, DƏRMAN YOXDUR”

Azərbaycan Diabet Liqasının sədri, Respublika Endokrinoloji Mərkəzinin həkimi Yeganə Sultanova da dərmanların verilməsində fasilə olduğunu təsdiqləyir: “Ancaq bu o demək deyil ki, dərman yoxdur. Burada keçid məsələsi var. Əvvəllər tibb müəssisələrini dərmanla İcbari Tibbi Sığorta təmin edirdi. İndi bu təminat TƏBİB-ə keçib. Ola bilsin ki, sənədləşmə və s. məsələlərə görə fasilə yaranıb”.

Sosial-strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli isə məsələni dövlət satınalmaları üzrə özəl şirkətlərlə dövlət müəssisələri arasında yaşanan problemlərlə izah edir: “İstər şəkər dərmanları olsun, istərsə də müxtəlif tibbi avadanlıqların alınması ilə bağlı bütün tenderlərin qalibi özəl şirkətlər olur. Onların həmin tenderdə üzərlərinə götürdükləri öhdəliyi yerinə yetirmələri üçün müəyyən maliyyə yubanmaları baş verir. Yəni dövlətin həmin vəsaiti qarşılamasında yubanmalar olur. Təchizat və təminat statistik məlumatlar əsasında, ölkədə nə qədər şəkər xəstəsi varsa, ona uyğun qurulmalıdır. Onların təminatını qurmaq üçün dərman preparatlarının ölkəyə gətirilməsi bir qədər də normadan artıq olmalıdır ki, həmin dövrdə xəstələri təmin etmək mümkün olsun”. Ekspertin sözlərinə görə, şəkər xəstələrinin sayı hər il artır: “Tutaq ki, statistik məlumata görə, bu gün şərti olaraq 10 min şəkər xəstəsi vardısa, ilin sonuna qədər bu rəqəm artır. Yeni qeydiyyatdan keçənlərin hesabına, məsələn, 11 min olur. 10 min xəstə üçün gətirilən dərmanı məcburdurlar ki, 11 min xəstəyə paylasınlar. Şəkər xəstəliyinin yaşı cavanlaşdığına görə, yeni növbəyə duran diabet xəstələrinin sayı ilə dünyasını dəyişmiş xəstələr arasında xeyli fərq var”. İ.Hüseynli hesab edir ki, problemin yaranmasında alışı həyata keçirən şirkətə maliyyə ödənişlərinin gecikməsi, zavodların təchizatında problem, qiymətlərin şişirdilməsi, korrupsiya halları, manipulyasiyalarla bağlı faktorlar rol oynayır: “Regionlardan tutmuş mərkəzə qədər elə dəqiq koordinasiya qurulmalıdır ki, bütün qeydiyyata duran xəstələrin məlumatları açıq bazada olsun. Proqnoz və kommunikasiyalar düzgün aparılmalıdır”.


İlqar Hüseynli


Yeganə Sultanova

# “MƏNİ BUNA HİND FİLMLƏRİ HƏVƏSLƏNDİRMİŞDİ”



Oksana Rəsulova: “Bu, rəqs müsabiqəsi yox, məhz kino ulduzu şousu idi. 6 000-dən çox hindistanlı iştirak üçün kastinqə gəlmişdi. Mən 6 000 adamın arasından seçilmiş 12 nəfərdən biri və yeganə azərbaycanlı idim. Yekunda o şounun qalibi oldum!”




“Kaspi”nin budəfəki qonağı aktrisa və prodüser Oksana Rəsulovadır. Onunla teatr, kino, sənət haqqında söhbətləşdik.




**● Sizdə Hindistana sevgi haradan yaranıb?**

● Uşaqlığım Rusiyada keçib. O illərdə hind filmləri, musiqiləri dəbdə idi. Mən də çox sevirdim. Hind rəqsləri, hind dili maraqlı idi, öyrənməyə başladım. O vaxt internet yox idi. Mahnılara qulaq asırdım, subtitrlərə baxır, araşdırır, kitabxanada materiallar oxuyurdum. Belə-belə gördüm ki, mən artıq Hindistanı yaxşı tanıyıram. Artıq nəinki ştatları, küçələri də əzbər bilirdim. Bununla yanaşı, dərsimi də çox yaxşı oxuyurdum. Doqquzuncu sinifdə artıq aktrisa olmağa qərar vermişdim. Məni buna hind filmləri həvəsləndirmişdi. Amma atam razılıq vermədi. Ürəyimdə aktrisa olmaq arzusu ilə Tibb Akademiyasının ginekologiya fakültəsinə daxil oldum. Doqquz il təhsil alaraq həm ginekoloq, həm də dəri-zöhrəvi həkimi oldum. Bakıya gələnə qədər bir müddət Rusiyada ixtisasım üzrə işlədim.

**● Rusiya Prezidenti Vladimir Putin xeyriyyə konsertində iştirakınıza görə sizə təşəkkür məktubu göndərib?**

● Bəli. Oxuduğum akademiyanın özfəaliyyət dərnəkləri vardı, mən də rəqslə məşğul olmağa başladım. Orada bir çox nailiyyətlərim oldu, diplomlar aldım, akademiyamız mənim çıxışlarımla həmişə festivallarda yaxşı yerlər tutdu. Hətta 2006-cı ildə Vladimir Putin Moskvada xeyriyyə konsertində iştirakıma görə akademiyamıza təşəkkür məktubu göndərmişdi. 2005-ci ildə keçirilən müsabiqədə üçüncü, 2007-ci ildə ikinci dərəcəli laureat, 2009-cu ildə isə beynəlxalq müsabiqənin qalibi olmuşam.

> *“Teatrın ruhu əsərdir, bədəni aktyordur. Digər tərəfdən isə səhnə bədəndir, ona ruh və can verən aktyorun özüdür.”*

## “RUSİYAYA QAYITMAQ İSTƏMƏDİM”

**● Niyə həkim kimi fəaliyyət göstərmədiniz?**

● 2008-ci ildə Azərbaycana gəldim. Baxmayaraq ki, həkim idim, yaradıcılıq ruhu məni heç vaxt tərk etmədi. Burada müəyyən səbəblərdən küsdüm, kənara çəkildim. Başa düşdüm ki, Azərbaycanda həkim kimi fəaliyyət göstərə bilməyəcəyəm. Rusiyaya qayıtmaq istəmədim, yenidən rəqslə məşğul olmaq qərarına gəldim. 2008-ci ildə məktəb yaratdım. Hindistan səfirliyi ilə əlaqəli işlədim. Hindistanı Azərbaycana və Azərbaycanı Hindistana mədəniyyət baxımından ən çox tanıdan mən olmuşam. Hazırda rəqsdə olmasam da, onlarla işimi davam etdirirəm.

**● “Bollywood”da təhsil almaq sizə nə verdi?**

● 2009-cu ildən başladım filmlərə çəkilməyə. İlk çəkildiyim film “Mənim atam” festival filmi oldu. Ondan sonra film, reklam təklifləri gəldi. Düşündüm ki, bunun təhsilini almalıyam. 2012-ci ildə Hindistana “Bollywood”da Anupam Kherin aktyorluq məktəbində təhsil almağa yollandım. Bizə kamera altında düzgün işləməyi elə mükəmməl öyrətmişdilər ki, gündəlik həyatımızda da elə bilirdik hər yerdə kamera var. Orada olduğum müddətdə də bir çox kastinqlərə qoşuldum, reklamlara çəkildim.

## “ƏN BÖYÜK DƏSTƏKÇİM FUAD POLADOV OLUB”

**● Bildiyim qədərilə Fuad Poladov filmə görə sizə xeyir-dua vermişdi...**

● 2014-cü ildə Bakıya qayıdanda “Zaman adlı qatar” adlı filmdə baş rolda çəkildim. Elə həmin il öz prodakşnımı yaradaraq filmlər çəkməyə başladım. “Şər qarışanda” filmi prodüser kimi ilk filmim oldu. Kino sektorunda ən böyük dəstəkçim Fuad Poladov olub. O, filmlə bağlı “Oksana, mən bu filmə baxdım, elə bildim ki, bu sənin birinci yox, yüzüncü filmindir. Filmin ssenarisində, süjetində müəyyən səhvlər var, amma sənin oyununda heç bir səhv yoxdur, belə də davam elə”, - dedi. Fuad müəllimdən bunu eşitmək mənim üçün həm xeyir-dua, həm də böyük bir məsuliyyət idi. Mən çox xoşbəxt idim.



## “MƏN O ŞOUNUN QALİBİ OLDUM”

**● “Hindistanın ən parlaq kino ulduzu ol” şousunda qalib olmağınız necə reallaşdı?**

● 2014-cü ildə Hindistanda “Racc Kapur film studio”da keçirilən, ZTV-də yayımlanan “Hindistanın ən parlaq kino ulduzu ol” adlı realiti şouda iştirak etdim. Bu, rəqs müsabiqəsi yox, məhz kino ulduzu şousu idi. 6 000-dən çox hindistanlı iştirak üçün kastinqə gəlmişdi. Mən 6 000 adamın arasından seçilmiş 12 nəfərdən biri və yeganə azərbaycanlı idim. Yekunda həm də o şounun qalibi oldum! Şou boyu bizə müəllimlər səhnə, aktyorluq, düzgün tələffüz, rəqs, bədən dili, gimnastika, yoqa və s. öyrədirdilər. Hər həftə sonu şou bütün Hindistana yayımlanır, SMS vasitəsilə həftənin qalibi seçilirdi. Xarici vətəndaş bir mən olduğumdan daha çox diqqət mərkəzində idim. Hər həftə çıxışım zamanı bayrağımız dalğalanırdı və finalda bayrağımız qaldırılan an çox böyük sevinc və qürur hissi yaşadım. Artıq ölkəmizi də tanıyır, mənə “Oksana from Azerbaijan” deyirdilər. 2012-2017-ci illər ərzində Hindistanda seriallar, reklamlar, sosial çarxlarda yer aldım. Azərbaycanda 16-17 filmdə baş rolda və bir neçə serialda çəkildim. Öz prodakşnımda isə “Şər qarışanda”, “Mələyin öpüşü”, “Sevgi romanı” adlı üç film, “Lal yuxu”, “Yalan həqiqət”, “Son nəfəs”, “Sara” seriallarını ərsəyə gətirdim.

## “TEATRIN RUHU ƏSƏR, BƏDƏNİ AKTYORDUR”

**● Sizcə, teatrın ruhu, canı nədir?**

● Teatrın ruhu əsərdir, bədəni aktyordur. Digər tərəfdən isə səhnə bədəndir, ona ruh və can verən aktyorun özüdür. Hazırda Vidadi Həsənovun yaratdığı “M Teatr”ın səhnəsində müxtəlif obrazlar yaradıram. Bu, mənə xüsusi zövq verir. Özümü burada tapdım, hiss etdim. Nə gözəl ki, böyük sənətkarımız Vidadi Həsənov mənə inandı, güvəndi. Həmçinin aktyorlar Ziya Ağa, Etibar İbadullayev və digərləri mənə dəstək oldular. Hamısına minnətdaram. Nə gözəl ki, “M teatr” var. Nə gözəl ki, mən də “M teatr”dayam!



**Fotolar:** Tapdıq Abdullayev/Global Media Group

# ONUN KAMANI OXUYURDU

28 may böyük kaman ifaçısı Habil Əliyevin doğum günüdür. Sənət yoldaşları ustadı adına və sənətinə layiq hörmətlə anırlar. Deyirlər ki, Habil Əliyev kamanı ilə heç kimi təkrar etmirdi, yalnız özünü ifadə edirdi.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

O, təkcə muğam və xalq mahnılarımızın mahir ifaçısı deyildi, həm də gözəl, yaddaqalan mahnıların bəstəkarı idi. Yazdığı mahnılar ən görkəmli müğənnilərimizin ifasında səslənib.

28 may böyük kaman ifaçısı Habil Əliyevin doğum günüdür. Sənət yoldaşları ustadı adına və sənətinə layiq hörmətlə anırlar. Deyirlər ki, Habil Əliyev kamanı ilə heç kimi təkrar etmirdi, yalnız özünü ifadə edirdi. Bu ifa təkcə ölkəmizdə deyil, bütün dünyada musiqisevərlər tərəfindən böyük sevgi ilə qarşılanırdı.

### "DEYƏRDİM Kİ, O, KAMANÇAMIZIN GERBİ İDİ"

Xalq artisti, professor Möhlət Müslümov xatırlayır: "Habil Əliyevlə aylarla qastrollarda olmuşam. Ustadla son qastrolumuz Təbrizə olub. Məni ilk dəfə İrana konsertlərə də o aparıb. Ümumiyyətlə, gənc yaşlarımdan mənə hərtərəfli dəstək olub. Təbrizdəki son konsertində səhnəyə çıxıb "kamançama istefa verirəm, bu, axırıncı konsertimdir" dedi. Sonra "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan" şeirini söylədi, hamımızı da ağlatdı. Onu İranda çox sevirdilər. Habil müəllim deyirdi ki, orada musiqiyə qulaq asmırlar, musiqini içirlər. İranda küçədə gəzərkən hamı bizə yaxınlaşırdı. Habil müəllim böyük sənətkar idi. Deyərdim ki, o, kamançamızın gerbi idi. İkinci Habil müəllim yetişməyib, hələ bir əsr də yetişməyəcək. Onun həm bəstəkarlığı, həm də yüksək ifaçılığı vardı. Habil müəllim bütün dünyaya sübut elədi ki, kamança Azərbaycan xalqına məxsusdur".

Tarzən Habil Əliyevlə işbirliyinin çox olduğunu deyir: "Mən Habil müəllimlə birlikdə çox ifa etmişəm. Onunla üçlük çalmışam. Habil müəllimin yubileylərində həm rəhbərlik etdiyim Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblı çıxış edib, həm də Heydər Əliyev Fondu tərəfindən onun mahnılarından ibarət musiqi albomuna daxil olan disklərin buraxılışını ustad mənə həvalə etdi. Biz 6-7 gənc xanəndə ilə o diskləri hazırladıq. Mən Habil müəllimi hər gün xatırlayıram, hər gün də ona qulaq asıram. Onun lent yazıları mənə çox kömək edir". M.Müslümov deyir ki, Habil Əliyev musiqi məktəblərində dərs deməsə də, çoxlu tələbə yetişdirib: "Dərs deməklə deyil. Hazırda nə qədər yaxşı kamançaçalan var, hamısı Habil müəllimi yamsılayır, təqlid edir. Bu, böyük məktəbdir. Sənətin yüksəkliyi budur, səni yamsılasınlar. O, özü də bunu görürdü. Rəhmətlik Ədalət Vəzirovun, Fəxrəddin Dadaşovun ifaçılığından çox xoşu gəlirdi. Biz qastrollarda məşq edən zaman gəlib məsləhətlərini verirdi".

Tarzən xatırlayır ki, insanlar toy şənliklərində Habil Əliyevin ifa etməsi üçün aylarla gözləyirmişlər: "Onunla çox toyda olmuşam. Onun görüşünə millət yığılırdı, hər dəfə az qala 2-3 min adam gəlirdi. Heç o toya dəvətləri olmayanlar da Habil müəllimi yaxından görmək, ona qulaq asmaq üçün gəlirdilər".



### "HABİL KİMİSİ GƏLMƏDİ"

Xalq artisti Ağasəlim Abdullayev "Habil Əliyevlə elə qastrollarımız olub ki, iki aydan çox çəkib. Azərbaycanda da konsertlərdə birgə çox iştirak etmişik", - deyə ustadı xatırlayır: "İranda qastrolda olanda təkcə azərbaycanlıların deyil, elə farsların da ona möcüzəvi sənətkar kimi yanaşdığının şahidi olmuşam. Onu görmək üçün qonaq evinin qarşısına 100-200 adam yığılırdı. O vaxt Hacıbaba Hüseynov, Arif Babayev, Teymur Mustafayev də bizimlə idi. Habil Əliyevi evlərinə dəvət edirdilər. O da imkan edib hamısına gedə bilmirdi. Konsertlərdən sonra yorğun olurdu. İranın böyük xanəndəsi Şajaryanla birlikdə konserti olurdu. O konsertlərdə bəlkə də beş min adam iştirak edirdi". A.Abdullayev Habil Əliyevlə və xanəndə Teymur Mustafayevlə birlikdə el şənliklərinə çox getdiyini xatırlayır: "Həmin şənliklərdə Habil müəllimə olan el sevgisinin şahidi olmuşam. Habil kamança alətinin şahıdır. Çünki ondan qabaq başqa millətlərin də kamançaçalanları vardı. Habildən sonra onların əksəriyyəti kamançanı yerə qoydu. Habil kamanı onların əlindən aldı". A.Abdullayev deyir ki, Habil Əliyev özü də kamançaçalanlar yetişdirib, ondan sonra da kamançaçalanlar yetişib, amma onların heç birinin sənəti Habil Əliyev kimi olmayıb: "Habil yolunu gedən yoxdur. İndikilərin əlləri yaxşı işləyir, amma musiqiyə ürək lazımdır. Habilin ürəyi onlarda ola bilməz. Onun kamanı oxuyurdu. Heç xanəndə onun çalğışı kimi oxuya bilmirdi. Ondan sonra Habil kimisi gəlmədi. İndi kamançanın yolu dəyişib, muğama yaxın gəlmir, müxtəlif aranjemanlar edirlər. Amma Habil kamanı xanəndələrdən yaxşı oxudurdu...".

### "GƏLİN, SİZİN İFANIZI YAZAQ!"

Xanəndə Ehtiram Hüseynov ustad sənətkarın xoşladığı gənc ifaçılardan olduğu üçün özünü xoşbəxt sayır: "Habil müəllim bir neçə gənc xanəndəni dəvət etdi ki, onları müşayiət etsin və həmin ifalar lentə yazılsın. O gənclərdən biri də mən idim. Muğam Teatrında konsert zamanı Almaz Orucova, Babək Niftəliyev, Sevinc Sarıyeva, Əsgər Əhmədovu, tar-kamança ifaçıları Elçin və Elnur Haşımovları və məni yığdı. O vaxt hələ muğam müsabiqələri yox idi. "Mən heç vaxt heç kimə deməmişəm, gəl, sənin ifanı lentə yazım, amma sənlə Babəkə deyirəm ki, gəlin, sizin ifanızı yazaq, qoy gələcək üçün yadigar qalsın", - söylədi. Hətta zarafatla dedi ki, bu, sizə yox, mənə lazım olacaq. Mənimlə "Segah" təsnifini, Babək üçün də "Səmayi-Şəms" muğamını çaldı. Bu, bizim üçün böyük qürur idi. Biz onun evinə gedib-gəlirdik. O, həmçinin bizə dəyərli məsləhətlər verirdi. Bu, bizim sənətimizə Habil Əliyev tərəfindən verilən yüksək qiymət idi".



Möhlət Müslümov
Ağasəlim Abdullayev
Ehtiram Hüseynov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
25 MAY ŞƏNBƏ 2024
www.kaspi.az






Hidayət Heydərovun kolleksiyasında qatıldığı bütün böyük turnirlərin baş mükafatı var. Çatışmayan yalnız Olimpiya Oyunlarının qızılıdır. Bu il Parisdə keçiriləcək növbəti Yay Olimpiya Oyunlarında da 26 yaşlı cüdoçu əsas favoritlərdən olacaq.

# HƏDƏF OLİMPİYA QIZILIDIR

Cüdo Azərbaycanda ən populyar və uğurlu idman növlərindən biridir. Təsadüfi deyil ki, ölkəmiz Yay Olimpiya Oyunlarında güləşdən sonra ən yaxşı nəticəni məhz sözügedən yapon döyüş sənətində göstərib. Cüdoçularımız olimpiadalarda beş medal qazanıblar ki, bunlardan biri qızıl, ikisi gümüş, ikisi bürüncdür. Olimpiya Oyunlarında ilk "qızıl" da məhz cüdonun payına düşür. 1992-ci ildə Barselonada təşkil edilən Olimpiadada Nazim Hüseynov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Lakin o, MDB adından yarışırdı. 2008-ci ildə Pekində keçirilən Yay Olimpiya Oyunlarında isə Elnur Məmmədli bütün rəqiblərini üstələyib.

2024-cü il də artıq Azərbaycan cüdosunun tarixinə düşdü. Elxan Məmmədovdan 11 il sonra cüdoçumuz dünya çempionu adını qazandı. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə keçirilən yarışda 73 kq çəki dərəcəsində Hidayət Heydərov planetin ən güclüsü adını qazandı. Bu yazımızda ondan bəhs edəcəyik.

## KİMDİR YENİ DÜNYA ÇEMPİONUMUZ?

Hidayət Heydərov 1997-ci ildə Qazaxıstanın Karaqanda şəhərində dünyaya gəlib. Onun ailəsi əslən Göyçaydandır. Hidayətin üç yaşı olarkən ailəsi Bakıya köçüb. Balaca vaxtlarından aktivliyi ilə seçilən, idmana marağı olan qəhrəmanımız altı yaşında olarkən cüdoya başlayır. Onun ilk müəllimi Tərlan Həsənov olur.

Əzmkarlığı ilə diqqət çəkən Hidayət tezliklə cüdoda uğur qazanmağa başlayır. O, 2008-ci ildə Bakı çempionluğunu, bir il sonra isə Azərbaycan çempionluğunu qazanır. 60 kq çəki dərəcəsində iki dəfə Azərbaycan çempionluğunu əldə edən yeniyetmə idmançının ayağı bundan sonra beynəlxalq arenaya açılır. 2010-cu ildə Tbilisidə keçirilən beynəlxalq turnirdə ikinci yerə çıxan Hidayət növbəti il Ankarada keçirilən Avropa kuboku uğrunda turnirdə birinci yeri tutur. 2012-ci ildə Hidayət yeniyetmələrdən ibarət



Azərbaycan yığmasına dəvət alır. Antalyada yeniyetmələrin Avropa kubokunda yarışan Hidayət turniri birinci pillədə başa vurur.

### AVROPA VƏ DÜNYA ÇEMPİONATI MEDALLARI

Heydərov sonradan yarışlara 73 kq çəki dərəcəsində qatılır. Hansı ki, bu çəkidə Elnur Məmmədli, Rüstəm Orucov kimi idmançılar böyük uğurlar əldə edib, Olimpiya oyunlarında medal qazanıblar. Hidayət hazırda dördqat Avropa çempionudur. O, 2017-ci ildə Varşavada, 2022-ci ildə Sofiyada, 2023-cü ildə Monpelyedə, bu il isə Zaqrebdə bütün rəqiblərini üstələyib. O, qitə birinciliyində iki bürünc, bir gümüş əldə etməyi də bacarıb.

Hidayətin dünya çempionluğu arzusu isə gec reallaşdı. O, bəzən hakim haqsızlığı, bəzən xırda səhvlərdən qızıla çata bilmirdi. Daha əvvəl Bakı, Tokio və Daşkənddə qızıla iddia edən cüdoçu yekunda bürünc medalla kifayətlənib. Bu il isə o, çoxdankı arzusuna çatdı. Avropa və dünya çempionluqlarından əlavə, Heydərov Avropa Oyunlarında, Yay Universiadasında, İslam Həmrəyliyi oyunlarında medal qazanmağa müvəffəq olub.

## ƏZMKAR ÇEMPİONLUQ

Abu-Dabidəki dünya çempionatı boyu Hidayət gərgin mübarizədə Kosovo, Braziliya və Almaniya təmsilçiləri üzərində qələbə qazanıb. Finalda isə o, hazırkı Asiya çempionu, yaponiyalı Tatsuki İşihara ilə qarşılaşıb. Əsas vaxtın bitməsinə 40 saniyə qalmış Tatsuki vazari xalı ilə önə keçib. Lakin Hidayət təslim olmayıb. Əzmkarlıq göstərən idmançımız vaxtın bitməsinə 10 saniyə qalmış rəqibini ipponla məğlub edib və Abu-Dabidə Azərbaycan bayrağını dalğalandırıb.

**YEGANƏ ÇATIŞMAYAN MEDAL**

Hidayət Heydərovun kolleksiyasında qatıldığı bütün böyük turnirlərin baş mükafatı var. Çatışmayan yalnız Olimpiya Oyunlarının qızılıdır. Bu il Parisdə növbəti Yay Olimpiya Oyunları keçiriləcək. 26 yaşlı cüdoçu ölkəmizi Fransa paytaxtında da təmsil edəcək. 73 kq çəki dərəcəsində idmançımız Olimpiadanın əsas favoritlərindəndir. Ölkəmizin Yay Olimpiya Oyunlarında səkkiz illik qızıl medal həsrətinə məhz Hidayət Heydərovla son qoyacağına ümid böyükdür.

Hidayətin özünün də arzusu budur. O, dünya çempionu olduqdan sonra bu barədə fikirlərini bildirib. Hidayət deyib ki, dünya və Avropa çempionluqlarından sonra Olimpiya qızılını da əldə edib Azərbaycan idmanının tarixinə düşmək istəyir. Heydərov bunun üçün bütün imkanlara malikdir. Cüdo həvəskarlarına isə inanmaq və dəstək olmaq düşür.

